AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

12 sentyabr 2017-ci il № 61-64 (9155) www.seanews.az Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### “TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTU” BEYNƏLXALQ ASSOSİASİYASI TƏSİSÇİLƏRİNİN ÜMUMİ İCLASI KEÇİRİLİB



*Sentyabrın 8-də Odessada “Avropa-Asiya: inteqrasiya olunmuş nəqliyyat dəhlizləri” adlı II Beynəlxalq Nəqliyyat Konfransı çərçivəsində “Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu” Beynəlxalq Assosiasiyasının təsisçilərinin ümumi iclası keçirilib.*

Səh. 2

### GƏMİÇİLİYİN MÜHƏNDİS-GEOLOJİ GƏMİSİ “BİBİHEYBƏT” GƏMİ TƏMİRİ ZAVODUNDA KEYFİYYƏTLƏ TƏMİR EDİLİR



*Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin ixtisaslaşdırılmış donanmasına məxsus “Məmməd Süleymanov” mühəndis-geoloji gəmisi “Bibiheybət” Gəmi Təmiri Zavodunda təmirə dayanıb.*

Səh. 3

### HEYDƏR ƏLİYEV OLMASAYDI, BU FOTOŞƏKİLLƏR BƏLKƏ DƏ OLMAYACAQDI




*1986-cı il avqustun 31-də Krım-Qafqaz xətti boyunca kruiz reysini həyata keçirən “Admiral Naximov” adlı sovet sərnişin teploxodu Novorossiyskdən 15 kilometr aralıda qəzaya uğradı.*

Səh. 4

### İNDONEZİYA VƏ BAKI LİMANI ARASINDA KADRLARIN HAZIRLANMASINA DAİR FİKİR MÜBADİLƏSİ APARILIB



*İndoneziya və Bakı limanı arasında kadrların hazırlanmasına dair fikir mübadiləsi aparılıb.*

Səh. 5

### XƏZƏRİ QORUYAQ...



*Artıq 22 ildir ki, dünyanın bir çox ölkəsi hər il sentyabrın 15-də Beynəlxalq Sahilyanı Təmizlik Gününü qeyd edir. Sahilyanı Təmizlik Günü Yer kürəsində su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn ən irimiqyaslı könüllü hərəkatıdır.*

Səh. 6

### UNİVERSAL DÖYÜŞÇÜLƏRİMİZ AVROPA ÇEMPİONATINDA UĞURLA ÇIXIŞ EDİBLƏR



*Ukraynanın Koblevo şəhərində universal döyüş üzrə Avropa çempionatı keçirilib. Yarışda ölkəmizi Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov və yığma komandanın məşqçisi Elşən İsmayılovun rəhbərliyi altında 17 idmançı təmsil edib.*

Səh. 8

# PREZİDENT İLHAM ƏLİYEV “XANKƏNDİ” SUALTI TİKİNTİ GƏMİSİNİN TƏQDİMAT MƏRASİMİNDƏ İŞTİRAK EDİB





***Sentyabrın 6-da Bakı gəmiqayırma zavodunda BP şirkətinin sifarişi ilə “Şahdəniz-2” layihəsi çərçivəsində inşa edilən “Xankəndi” sualtı tikinti gəmisinin təqdimat mərasimi olub.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, “BP-Azərbaycan” şirkətinin prezidenti Qəri Counz, “Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdilər.

Qeyd edək ki, Bakı gəmiqayırma zavodu fəaliyyətdə olduğu qısa müddətdə kifayət qədər uğurlu layihələr həyata keçirib. Bu layihələrə 25 min ton yükqaldırma gücünə malik “28 May” üzən doku, 50 ton dartıcı qüvvəyə malik olan “SOCAR 1” yedək gəmisini, Heydər Əliyev adına yarımdalma qazma qurğusunun pantonlarını və yuxarı bloklarını, “Zəfər”, “Üfüq” və “Turan” sərnişin gəmilərini misal göstərmək olar. Bundan başqa, Bakı gəmiqayırma zavodu 2015-ci ildə “Şahdəniz mərhələ 2” layihəsi çərçivəsində bir neçə gəminin təmir və yenilənmə layihələrini həyata keçirib. Bunlardan “İsrafil Hüseynov” borudüzən gəmisini, “Tofiq İsmayılov” dalğıc gəmisini, “Azərbaycan” kran gəmisini, “Caspian Endeavour” və “Seabed Supporter” təchizat gəmilərini, “Dədə Qorqud” yarımdalma qazma qurğusunu və “Gilavar” tədqiqat gəmisini qeyd etmək olar. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC ilə imzalanan müqavilələrə uyğun olaraq, hazırda tikintisi uğurla davam edən iki “RoPax” tipli nadir gəminin və iki neft tankerinin 2019-cu ildə təhvil verilməsi planlaşdırılır.

Dövlətimizin başçısına “Xankəndi” sualtı tikinti gəmisi haqqında videoməlumat da təqdim olundu.

2014-cü il aprelin 17-də “Bakı Gəmiqayırma Zavodu” MMC sualtı tikinti gəmisinin layihələndirilməsi və tikintisi barədə “Şahdəniz” qaz yatağının işlənilməsi və istismarı üzrə icraçı olan “BP Exploration” MMC ilə dəyəri 400 milyon dollara yaxın olan müqavilə bağlanıb. “Xankəndi" sualtı tikinti gəmisinin iki iri gövdə bölməsi müvafiq müqavilə əsasında Sinqapurda inşa edilərək təhlükəsiz şəkildə Bakıya gətirilib və bu iki hissə Bakı gəmiqayırma zavodunda tikinti-quraşdırma sahəsinə çıxarılaraq inşası başa çatmış burun, yaşayış və idarəetmə blokları ilə birləşdirilib və müvafiq inteqrasiya işləri yerinə yetirildikdən sonra ötən ilin mayında suya salınıb. Bu gəmi xüsusi olaraq nəhəng “Şahdəniz mərhələ 2” işlənilmə layihəsinin sualtı qurğularını quraşdırmaq üçün inşa edilib.

Prezident İlham Əliyevə “Şahdəniz-2” layihəsi çərçivəsində görülən işlərlə bağlı da məlumat verildi. Qeyd edək ki, artıq layihə üzrə işlərin 96 faizdən çox hissəsi tamamlanıb. Fəaliyyət dövründə Azərbaycanda 24 min yeni iş yeri açılıb. “Şahdəniz mərhələ 2” üzrə işlənilmə planına bir-birinə körpü ilə birləşdirilən iki yeni hasilat platforması, iki yarımdalma qazma qurğusu ilə qazılan ən az 26 sualtı quyu, suyun 500 metrədək dərinliyində quraşdırılan 500 kilometr uzunluğunda boru kəmərləri və Səngəçal terminalının genişləndirilməsi işləri daxildir. “Şahdəniz mərhələ 2” çərçivəsində əsas diqqət ildə 16 milyard kubmetr qaz və gündə 120 min barelədək kondensat əlavə etməklə hazırda istismar olunan lay intervallarında qalan ehtiyatlara yönəlib. Buna görə ildə 6 milyard kubmetr qaz Türkiyəyə nəql ediləcək və qalan həcm, yəni, ildə 10 milyard kubmetr qaz Avropa alıcılarına çatdırılacaq.

Dövlətimizin başçısı “Xankəndi” sualtı tikinti gəmisinin rəmzi istismara verilməsini bildirən lenti kəsdi.

Bakı gəmiqayırma zavodunun yanalma körpüsündə “Xankəndi” gəmisinin bütün göyərtə avadanlığı - əsas qaldırıcı kran, köməkçi kranlar, o cümlədən helikopter meydançası quraşdırılaraq gəminin bütün sistemləri, avadanlığı və qurğuları tam inteqrasiya edilib, yoxlanılaraq işə salınıb və sazlanıb. İki ay ərzində açıq dənizdə bütün istismar sınaqları uğurla yerinə yetirilib. “Xankəndi” gəmisinin tikintisində ümumilikdə iki mindən çox insan çalışıb ki, bu işçilərin 75 faizini yerli, 25 faizini isə əcnəbi mütəxəssislər təşkil edib. Gəmi sifarişçiyə təhvil verilmək üçün tam hazır vəziyyətə gətirilib.

DNV GL Norveç və Almaniya təsnifat cəmiyyətinin nəzarəti altında tikilən bu nadir gəminin maksimal sürəti 13,5 knot, uzunluğu 155, eni 32, maksimal suya oturumu 7,5 və əsas göyərtəsinin hündürlüyü 13 metrdir. Gəmi 3,5 metr hündürlüyündə böyük dalğalarda fəaliyyət göstərməsi üçün dinamik mövqeləndirmə sistemi, 600 metrədək sualtı əməliyyatlar aparmaq üçün 900 metrik tonluq əsas kranı, 18 nəfərlik iki dalğıc kapsulu sistemi, məsafədən idarə olunan iki aparatı, möhkəmləndirilmiş avadanlıq endirmə şaxtası və digər zəruri texnikalarla tam təchiz edilib. Sualtı tikinti gəmisinin ümumi çəkisi 17700 tondur və suya oturumu 6,5 metr olmaqla 5 min metrik tondan artıq yükgötürmə qabiliyyətinə malikdir.

Qeyd edək ki, 175 nəfərlik kayutlarla təchiz olunan bu gəmi indiyə qədər Bakı gəmiqayırma zavodunda icra olunan ən mühüm sifarişdir. Gəminin inşası Azərbaycanın iqtisadi və sənaye potensialının gücləndirilməsi istiqamətində növbəti addımdır.










Sonra Prezident İlham Əliyev gəminin işə salınmasını bildirən düyməni basdı.

“Xankəndi” gəmisi təkcə Azərbaycanın deyil, bütövlükdə Xəzərin gəmiçilik tarixində yeni eranın başlanğıcıdır. Xəzər dənizindəki neft və qaz donanmasının yeni texnologiyalı ən müasir gəmisi olan “Xankəndi” suyun dərinliyi 550 metrədək olan hissələrdə dünya standartlarına uyğun sualtı qurğular inşa etmək üçün layihələndirilib. Gəmi təhvil verildikdən sonra sahildən təxminən 70 kilometr məsafədə yerləşən “Şahdəniz” yatağının ikinci inkişaf mərhələsi üçün səfərbər olunacaq və 2017-2027-ci illərdə “Şahdəniz mərhələ 2” layihəsinin sualtı quraşdırma işlərində istifadə ediləcək.

*(Ardı 2-ci səhifədə)*

# PREZİDENT İLHAM ƏLİYEV "XANKƏNDİ" SUALTI TİKİNTİ GƏMİSİNİN TƏQDİMAT MƏRASİMİNDƏ İŞTİRAK EDİB

*(Əvvəli 1-ci səhifədə)*

Daha sonra "Xankəndi" sualtı tikinti gəmisinin istismara verilməsi mərasimində çıxış edən Prezident İlham ƏLİYEV dedi:

-Bu gözəl hadisə münasibətilə sizi təbrik etmək istəyirəm. "Xankəndi" gəmisinin istifadəyə verilməsi doğrudan da tarixi hadisədir. Şadam ki, bu nəhəng gəmi Azərbaycanda, Bakıda inşa edilib. Bu gəmiyə "Xankəndi" adı verilib. Onun da çox böyük mənası var. Xankəndi bizim qədim şəhərimizdir. Xankəndinin adı bizim üçün əzizdir, doğmadır. Təsadüfi deyil ki, dünyada nadir standartlara cavab verən bu gəmiyə məhz bu ad verilmişdir.

Bu gəminin tikintisi ölkəmizin gücünü göstərir. Onu göstərir ki, bu gün Azərbaycanda istənilən böyük tikinti işi aparıla bilər. Bu gəminin inşası, istifadəyə verilməsi eyni zamanda onu göstərir ki, vaxtilə gəmiqayırma zavodunun tikintisi haqqında verilmiş qərar düzgün qərar idi. O vaxt bu qərarı verərkən və bu zavodun tikintisinə böyük sərmayə ayırarkən biz məhz bu məqsədi güdürdük ki, Azərbaycan istənilən növ gəmini inşa edə bilsin. Bu gəminin tikintisi eyni zamanda onu göstərir ki, elə bir gəmi yoxdur, biz gəmiqayırma zavodunda bunu inşa edə bilməyək. Hazırda dörd yeni gəmi tikilir - ikisi bərə, ikisi tanker.

























"Xankəndi" gəmisinin tikintisi təqribən 400 milyon dollara yaxın vəsaitə başa gəlib. Bu da dövlətimizin gücünü göstərir. "Şahdəniz" qaz yatağının işlənilməsində bu gəminin əvəzsiz xidməti olacaq.

Bu gün mənə verilən məlumata görə, dünyada bu tipdə cəmi 10 gəmi var. Onlardan biri Azərbaycandadır, Azərbaycanda tikilib. Bu gəmidə çalışacaq heyət üzvlərinin əksəriyyəti Azərbaycan mütəxəssisləridir. Yəni, bu gəminin tikintisi ilə eyni zamanda treninq, hazırlıq işləri də aparılmışdır ki, bu gün həm gəminin kapitanı, həm də bütün heyət üzvlərinin əksəriyyəti yerli kadrlardır.

Bir daha demək istəyirəm ki, bu, çox əlamətdar, tarixi hadisədir. "Şahdəniz" qaz yatağının işlənilməsi bizim üçün strateji layihədir. Şadam ki, bu istiqamətdə də işlər yaxşı gedir. İndi mənə məlumat verilib ki, "Şahdəniz-2" qaz yatağının hazırlıq işlərinin səviyyəsi 96 faizdir. Demək olar ki, artıq bu layihə reallaşıb. Bu gəmisiz "Şahdəniz"i böyük səmərə ilə işlətmək mümkün deyil.

Biz bütün bu işləri ardıcıl şəkildə aparırıq. Sərmayə qoyulub, xarici tərəfdaşlarla işlər düzgün qurulub. Azərbaycanda platformalar, üzən qurğular, belə nəhəng gəmilər, Səngəçal terminalı, neft-qaz kəmərləri inşa edilir. Azərbaycanın neft-qaz sektoruna kompleks şəkildə, düşünülmüş və planlı surətdə böyük sərmayə qoyulub. Bu gün biz bunun nəticəsini görürük. Burada həm BP, həm SOCAR şirkətlərinin birgə fəaliyyətini də qeyd etməliyəm. Bu əməkdaşlıq nəticəsində Azərbaycanın neft-qaz sektorunda tarixi nailiyyətlər artıq reallıqdır.

Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətini yüksək qiymətləndirirəm. Gəmiçiliyin fəaliyyəti beynəlxalq standartlara cavab verir. Gəmiçilik artıq gəlirlə işləyir, büdcəmizə böyük vergi ödəyir. Yəni, nəqliyyat, energetika infrastrukturumuzun uğurlu inkişafı ölkəmizin ümumi inkişafına böyük töhfədir.

Siz yəqin bilirsiniz ki, bir neçə gündən sonra "Azəri-Çıraq-Günəşli" yatağı üzrə yeni kontraktın imzalanması nəzərdə tutulur. Biz, o yataqdakı fəaliyyətimizi 2050-ci ilə qədər uzadacağıq. Bu da bir daha onu göstərir ki, Azərbaycanın çox böyük neft ehtiyatları var.

Mən xatırlayıram, 1994-cü ildə "Əsrin kontraktı" imzalananda bizi istəməyən bəzi qüvvələr, həm ölkə daxilində, həm xarici qüvvələr deyirdilər ki, Azərbaycanda kifayət qədər neft yoxdur, "Azəri-Çıraq-Günəşli"də neft azdır. Heç bir neft kəmərinin tikintisinə ehtiyac yoxdur, çünki bu kəmər boş qalacaq. İndi 20 ildir ki, biz "Azəri-Çıraq-Günəşli"dən neft və qaz hasil edirik. Burada hasilat 1997-ci ildən başlamışdır. İyirmi ildən sonra yeni kontrakt imzalanır ki, 2050-ci ilə qədər "Azəri-Çıraq-Günəşli"dən lazımi səviyyədə neft hasil ediləcək. Bu, həm o bədbin və qərəzli fikirlərə bir cavabdır, eyni zamanda, onu göstərir ki, ölkəmizin çox böyük enerji potensialı var.

"Şahdəniz"ə gəldikdə isə bu yatağın minimum qaz ehtiyatı 1,2 trilyon kubmetrdir. Bu, dünyanın ən böyük qaz yataqlarından biridir. Ümumilikdə isə qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Yəni, Azərbaycan bundan sonra ən azı 100 il ərzində özünü və bir çox ölkələri təbii qazla təmin edəcək.

Mən bütün Azərbaycan xalqını bu tarixi hadisə münasibətilə təbrik etmək istəyirəm. Bu gəminin tikintisində iştirak etmiş bütün vətəndaşları, mütəxəssisləri təbrik etmək istəyirəm. Onlara minnətdarlıq bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, "Xankəndi" gəmisi "Şahdəniz" yatağının işlənilməsində öz qiymətli rolunu oynayacaq, ölkəmizin güclənməsinə töhfəsini verəcək. Sağ olun.

# "TRANSXƏZƏR BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTU" BEYNƏLXALQ ASSOSİASİYASI TƏSİSÇİLƏRİNİN ÜMUMİ İCLASI KEÇİRİLİB





***Sentyabrın 8-də Odessada "Avropa-Asiya: inteqrasiya olunmuş nəqliyyat dəhlizləri" adlı II Beynəlxalq Nəqliyyat Konfransı çərçivəsində "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının təsisçilərinin ümumi iclası keçirilib.***

Ümumi iclasın işində Azərbaycan, Gürcüstan, Qazaxıstan, Polşa və Ukraynanın dəmir yolları, gəmiçilik şirkətləri və limanların nümayəndələri iştirak ediblər.

Tədbirdə ölkəmizi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin Baş direktorunun müavini Vahid Əliyev və digər rəsmi şəxslər təmsil ediblər.

Toplantıda Azərbaycan şirkəti olan «ADY Container» MMC-nin Beynəlxalq Transxəzər Nəqliyyat Konsorsiumuna yeni üzv kimi daxil olması haqqında qərar qəbul edilib. Tədbirdə yükdaşıma texnologiyalarının təkmilləşdirilməsi sahəsində digər vacib qərarlar verilib.

Görüş iştirakçıları bildiriblər ki, TBNM intensiv şəkildə inkişaf edir. Marşrut üzrə texniki məqamlar və vahid tarif siyasəti təkmilləşdirilib və bunun üçün də marşrutun gələcək perspektivləri çox böyükdür.

Eyni zamanda ümumi qərarla, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Avrasiya məkanında tanıdılması və inkişaf etdirilməsi məqsədi ilə marşruta "Middle corridor" adı verilib.

# ASİYADAN AVROPAYA TRANZİT YÜK DAŞIMALARI ÜÇÜN AZƏRBAYCANDA UCUZ TARİFLƏR TƏTBİQ EDİLİR



***Asiyadan Avropaya tranzit yük daşımaları üçün Azərbaycanda əlverişli infrastruktur mövcuddur və ucuz tariflər tətbiq edilir.***

Bunu nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə Odessa şəhərində "Avropa-Asiya: inteqrasiya olunmuş nəqliyyat dəhlizləri" mövzusunda yüksək səviyyəli II Beynəlxalq Nəqliyyat konfransının rəsmı açılış mərasimində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, tranzit yük daşımaları üçün Azərbaycanda beynəlxalq standartlar tətbiq edilir və yüksək təhlükəsizlik mövcuddur.

"Azərbaycanda effektli müasir nəqliyyat sistemi var və yük daşımaları qısa müddətdə ölkəmizin ərazisindən keçə bilir", - deyə Elmir Vəlizadə bildirib.

***Emil Hüseynli***



## 1080 METR UZUNLUĞUNDA YENİ ESTAKADA TİKİLİB

***"Neft Daşları" Neft və Qazçıxarma İdarəsində (NQÇİ) 1080 metr uzunluğunda yeni estakada inşa edilib.***

AZƏRTAC SOCAR-a istinadla xəbər verir ki, əməyin mühafizəsi və təhlükəsizlik texnikasının təkmilləşdirilməsi istiqamətində aparılan mütəmadi işin nəticəsi olaraq, "Neft Daşları" NQÇİ-də 1080 metr uzunluğunda yeni estakada tikilib. N.Nərimanov adına NQÇİ-də isə 1120 kvadratmetr ərazidə salınan estakadalar əsaslı təmir olunub.

## GƏMİÇİLİYİN MÜHƏNDİS-GEOLOJİ GƏMİSİ "BİBİHEYBƏT" GƏMİ TƏMİRİ ZAVODUNDA KEYFİYYƏTLƏ TƏMİR EDİLİR










***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin ixtisaslaşdırılmış donanmasına məxsus "Məmməd Süleymanov" mühəndis-geoloji gəmisi "Bibiheybət" Gəmi Təmiri Zavodunda təmirə dayanıb.***

Gəminin avar və sükan qurğuları keyfiyyətlə təmir edilir, sualtı və suüstü hissələrinin, lövbər və lövbər zəncirinin rənglənməsi həyata keçirilir. Gəminin gövdə hissəsinin qüsurlu yerləri də təmir olunur. Eyni zamanda üzən vasitənin göyərtəsində dəmir lövhələr dəyişdirilir.

Uzunluğu 45.635, eni 9.310 metr olan gəminin maksimal sürəti 11.4 uzel, dedveyti isə 171 tondur.

## ÇİNDƏN AVROPAYA GÜRCÜSTAN VƏ AZƏRBAYCAN ƏRAZİSİNDƏN TRANZİT YÜK DAŞIMALARI ÜÇÜN ƏLVERİŞLİ MÜHİT VAR



***Bu fikri Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Qaxariya Odessa şəhərində "Avropa-Asiya: inteqrasiya olunmuş nəqliyyat dəhlizləri" mövzusunda yüksək səviyyəli ikinci Beynəlxalq Nəqliyyat Konfransının rəsmi açılış mərasimində deyib.***

Nazirin sözlərinə görə, Asiyadan Avropaya tranzit yük daşımaları üçün Azərbaycan, Gürcüstan və Qazaxıstan nəqliyyatçıları arasında razılaşma var.

"Çindən Avropaya yük daşımaları cəmi 40-45 gün çəkir. Bu da onu göstərir ki, Avropa-Asiya dəhlizi əlverişlidir. Ukraynanın da bu prosesə qoşulacağına inanırıq. Bakı-Tbilisi-Qars vasitəsilə də əlverişli yük daşımaları həyata keçiriləcək. Gürcüstan hakimiyyəti hər zaman danışıqlara açıqdır", - deyə Qaxariya bildirib.

## "RONALD REAGAN" GƏMİSİ YOKOSUKA LİMANINI TƏRK EDİB

***ABŞ-ın 7-ci donanmasına məxsus "Ronald Reagan" təyyarədaşıyan gəmisi Tokionun yaxınlığındakı Yokosuka limanını tərk edib.***

NHK telekanalı xəbər verir ki, gəmi patrul xidməti üçün açıq dənizə yollanıb. ABŞ-ın 7-ci donanmasının nəzarətinə Sakit okeanın qərb, Hind okeanının isə şərq hissəsi daxildir.

Xatırladaq ki, bu gəmi cari ilin iyununda "Carl Vinson" təyyarədaşıyan gəmisi ilə birlikdə Koreya yarımadası yaxınlığında patrul xidməti həyata keçirib.

Gəminin açıq dənizə çıxması avqustun 9-da Pxenyanın qeyd etdiyi Koreya Xalq Demokratik Respublikası Günü ilə üst-üstə düşür.



# "MPK-452"SƏRNİŞİN GƏMİSİ TƏMİRƏ DAYANIB

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin ixtisaslaşdırlmış donanmasına məxsus "MPK-452" sərnişin gəmisi "Bibiheybət" Gəmi Təmiri Zavodunda təmir edilir.***

Gəminin arxa hissəsində qüsurlu metal lövhələr dəyişdirilib, sualtı və suüstü hissələri rənglənib. Kinqston qutusunun, lövbər və lövbər zəncirinin təmiri həyata keçirilir.

Həmçinin gəminin maşın şöbəsində elektrik cihazları saz vəziyyətə gətirilib. Yağ, yanacaq və su sistemlərində çatışmazlıqlar aradan qaldırılıb.

Qeyd edək ki, uzunluğu 34.03, eni 7.2 metr olan gəminin maksimal sürəti 11.1 uzel, dedveyti isə 30.5 tondur. Gəmi göyərtəsinə 66 sərnişin qəbul edə bilir.




Məlumat üçün bildirək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzərin kontinental şelfində neft və qaz istehsalının bütün proseslərində, o cümlədən dəniz özülləri və estakadalarının tikilməsi, coğrafi-geoloji tədqiqatların həyata keçirilməsi, neft-qaz boru kəmərlərinin çəkilməsi, istismar zamanı onların təmiri, dənizdəki neft obyektlərinin yanğından mühafizəsi, neftçilərin iş yerlərinə çatdırılması, həmçinin müxtəlif növ yüklərin (yanacaq-sürtkü materialları, içməli su, metanol, mal-material, avadanlıq, metal konstruksiyalar və s.) daşınmasında ən müxtəlif xidmətlər göstərir. Elə təmirə dayanan "MPK-452" sərnişin gəmisi də neftçilərin iş yerlərinə çatdırılması və digər xidmətlərdə istismar edilir.

## AZƏRBAYCAN İLƏ QAZAXISTAN ARASINDA DİPLOMATİK MÜNASİBƏTLƏRİN 25 İLLİYİ: TARİXİ DOSTLUQDAN STRATEJİ MÜTTƏFİQLİYƏ GEDƏN YOL

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini, iqtisadiyyat üzrə fəlsəfə doktoru Ərəstü Həbibbəylinin Azərbaycan ilə Qazaxıstan arasında diplomatik münasibətlərin 25 illiyi ilə bağlı hazırladığı məqalədə ölkələrimizin müstəqillik illərində tarixi dostluqdan strateji müttəfiqliyə gedən yolda qazandığı uğurlardan bəhs olunur.***

x x x

Ortaq soykökü, birgə tarix, mədəni və dini dəyərləri bölüşən Azərbaycan və Qazaxıstan müasir dövrdə Avrasiya məkanında müstəqil siyasət yeridən lider dövlətlərdir. Hər iki ölkə mühüm geostrateji mövqeyə, zəngin enerji resurslarına malikdir, enerji və nəqliyyat qovşaqlarının üzərində yerləşir və tarixən harmonik multikultural mühitlə fərqləniblər. Xəzər dənizinin şərq sahilində yerləşən Qazaxıstan Azərbaycan üçün Şərqə doğru mühüm dəhliz, Azərbaycan isə Mərkəzi Asiya ölkələri üçün Qərbə açılan qapıdır.

Bir çox analitiklər Avrasiya regionunda strateji əhəmiyyətinə görə Qafqaz, Mərkəzi Asiya və Balkanları bərabər tuturlar. Bu bölgələr geosiyasi çəkisinə, eləcə də fərqli sivilizasiyaların kəsişmə mövqeyində yerləşməsindən irəli gələn coğrafi əhəmiyyətinə görə fərqlənirlər. Təsadüfi deyil ki, qlobal geosiyasi mühitdə transformasiyaların getdiyi yeni dünya nizamında hər üç region qaynar bölgə hesab olunur və bu bölgələrdə etnik-dini münaqişələr davam edir. Buna görə də geosiyasi cəhətdən bu qədər həssas regionlarda milli maraqlara söykənən müstəqil siyasət yeritmək olduqca çətindir.

Sovetlər İttifaqının dağılmasından sonra əsrin dörddəbirini geridə qoyan Azərbaycanın və Qazaxıstanın müstəqil dövlət olaraq formalaşmasının ağırlığı, ilk növbədə, siyasi liderlərin çiyinlərinə düşmüşdür. Məhz Heydər Əliyev dühasının və Nursultan Nazarbayevin uzaqgörən siyasəti hesabına hər iki respublika beynəlxalq aləmdə müstəqil dövlət kimi mövqelərini ortaya qoya bildilər. Ümumiyyətlə, hər bir xalqın həyatında taleyüklü şəxsiyyətlərin mühüm rolu olmuşdur. Əgər ingilislər üçün bu şəxsiyyət Uinston Çörçill, amerikalılar üçün Corc Vaşinqton, fransızlar üçün Şarl de Qoll, almanlar üçün Otto fon Bismark, ruslar üçün I Pyotr, çinlilər üçün Mao Tsze Dun, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün ulu öndər Heydər Əliyev, qazaxlar üçün isə Nursultan Nazarbayevdir. Hər iki lider, eyni zamanda, türk dünyasının inteqrasiyası yolunda da tarixi missiyaları ilə yaddaşlara yazılıb.



2017-ci il Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 25 illik tarixi ilə əlamətdardır. Bu 25 illik tarixi dövrdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Nursultan Nazarbayevin əsasını qoyduqları, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da möhkəmləndirilən dostluq və qardaşlıq əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. 2005-ci ildə "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə"ni imzalamaqla ölkələrimiz təbii strateji tərəfdaşlığını rəsmiləşdirmişdir.

Hazırda Azərbaycan ilə Qazaxıstan arasında yüksək səviyyəli siyasi dialoq mövcuddur. Ali və yüksək səviyyədə davamlı olaraq qarşılıqlı səfərlər, müxtəlif tədbirlərdə görüşlər həyata keçirilir. Sonuncu dəfə cari ilin aprel ayında Qazaxıstan Respublikası Prezidentinin Azərbaycana baş tutmuş rəsmi səfəri münasibətlərimizin daha da dərinləşməsinə və konkret sahələr üzrə yeni əməkdaşlıq sahələrinin müəyyənləşməsinə güclü təkan vermişdir.

Hər iki ölkə ikitərəfli müstəvidə olduğu kimi, beynəlxalq və regional təşkilatlar çərçivəsində də daim bir-birini dəstəkləyir. Hətta fərqli siyasi və iqtisadi birliklərdə təmsil olunsalar belə qarşılıqlı dəstəyi nümunəvi adlandırmaq doğru olar. Bu mənada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qardaş Qazaxıstanın göstərdiyi prinsipial mövqe olduqca böyük əhəmiyyət daşıyır. Nursultan Nazarbayevin Moskvada keçirilən Avrasiya Ali İqtisadi Şurasının zirvə görüşündə Ermənistanın Avrasiya İqtisadi İttifaqına qoşulması zamanı bu ittifaqın sərhədlərinin dəqiqləşdirilməsinin vacibliyi ilə bağlı nümayiş etdirdiyi mövqe bütün Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Bundan əlavə, 2016-cı ilin aprel ayında Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində erməni hərbi qüvvələrinin təxribatı nəticəsində baş verən hadisələr zamanı Qazaxıstan ictimaiyyətinin sosial şəbəkələr və mətbuat vasitəsilə Azərbaycanın haqlı mövqeyini dəstəkləməsi iki qardaş xalqın hisslərinin təbii ifadəsi kimi qəbul olunur.

Azərbaycan və Qazaxıstan artıq dünya miqyasında etibarlı tərəfdaş kimi tanınırlar. Müxtəlif beynəlxalq layihələrin iştirakçısı və müəllifi olan ölkələrimiz daim öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmişlər. Buna görə də hər iki ölkəyə qlobal müstəvidə böyük inam və etimad vardır. Azərbaycanın 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olması, Qazaxıstanın isə 2017-2018-ci illərdə bu mötəbər mövqeyə layiq görülməsi ölkələrimizə böyük inamın bariz nümunəsidir. Bu, cəmi 25 il ərzində beynəlxalq münasibətlər sisteminin müstəqil üzvü olan iki qardaş dövlətin zəfəridir.

Hər iki ölkə türkdilli xalqların inteqrasiyası istiqamətində də birgə addımlayır. Azərbaycan Qazaxıstan, Türkiyə və Qırğızıstanla birgə 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində keçirilən Zirvə görüşü zamanı əsası qoyulmuş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təsisçisidir. Eyni zamanda, ölkələrimiz türkdilli ölkələr arasında parlament diplomatiyasının, elmi, mədəni əməkdaşlığın gücləndirilməsini ortaq tədqiqatların və layihələrin həyata keçirilməsini istiqamətləndirən Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Akademiyası çərçivəsində fəal iştirakçılardır. Fikrimcə, Qazaxıstanda latın qrafikasına keçidlə bağlı qəbul edilən qərar humanitar sahədə əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəkdir. Türk Şurasının artıq 3 üzvünün latın qrafikasında əlifba sistemindən istifadəsi gələcək nəsillərin qarşılıqlı anlaşmasını daha da intensivləşdirməyə xidmət edəcəkdir.

Azərbaycan və Qazaxıstan bütün dünyada fərqli dəyər daşıyıcılarının birgəyaşayışının uğurlu nümunəsi kimi tanınırlar. Şərqlə Qərbin, Şimalla Cənubun, İslamla xristianlığın kəsişməsində yerləşən Azərbaycan və Qazaxıstan müxtəlif sivilizasiya və mədəniyyətlərin irsini özündə birləşdirir. Hər iki ölkədə çoxmillətli və çoxkonfessiyalı cəmiyyət mövcuddur. Digər tərəfdən, artıq dünyada monokultural və monoetnik cəmiyyət və ölkə anlayışı qəbul olunmur. Bəşəriyyət yalnız fərqliliklərin dəyərlərinə hörmət etməklə inkişaf edə bilər. Müasir dünyanın daha çox müxtəlif dinlərin, mədəniyyətlərin və ümumilikdə fərqliliklərin toqquşması ilə müşayiət olunduğunu nəzərə aldıqda, tolerantlıq və harmoniyaya söykənən bir həyat tərzinin dövlət siyasəti kimi dünyada təqdimatı olduqca aktualdır.

Hazırda dünyada mədəniyyətlərin barışmazlığı, İslam aləmində müxtəlif məzhəb və təriqətlər arasında mübarizənin artması, Qərb-İslam münasibətlərinin kəskinləşməsi və müxtəlif fobiyaların güclənməsi fonunda həm Azərbaycan, həm də Qazaxıstan mədəniyyətlərarası dialoqa töhfə vermək üçün addımlar atır. 2011-ci ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. 2016-cı ildə isə Bakı BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etmişdir. Bu il ölkəmizdə İslam Həmrəyliyi Oyunları keçirilmiş, 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmuşdur. Qazaxıstanda da Dünya və Ənənəvi Din Liderlərinin qurultayları, Mənəvi Mədəniyyət üzrə Dünya Forumu kimi dinlər və sivilizasiyalararası dialoqa çağırış edən mötəbər tədbirlər keçirilir. Bütün bunlar ölkələrimizin dünyada sülh, barışıq və birliyə çağırışının göstəricisidir. Həm Azərbaycan, həm də Qazaxıstan "həmrəylik nümunəsini" bütün dünyaya, o cümlədən İslam aləminə çatdırır.

Yüksək səviyyəli siyasi münasibətlərimiz iqtisadi əməkdaşlığımızın daha da dərinləşdirilməsinə yeni imkanlar açır. Xəzər dənizinin əks sahillərində yerləşən Azərbaycan və Qazaxıstanın tranzit mövqeyi və müvafiq kommunikasiya infrastrukturu Şərq-Qərb nəqliyyat dəhlizində ölkələrimizə üstün mövqe qazandırır. Hazırda Qazaxıstan öz neftini Bakı-Tbilisi-Ceyhan kəməri, eləcə də dəmir yolu vasitəsilə Avropaya nəql edir. Hər iki ölkə qarşılıqlı investisiya qoyuluşunda maraqlıdır. Statistik göstəricilərə əsasən, indiyədək Azərbaycandan Qazaxıstana 195 milyon ABŞ dolları, Qazaxıstandan Azərbaycana isə 68 milyon ABŞ dolları həcmində investisiya qoyulmuşdur.

Keçən il iki ölkə arasında qeydə alınan 125 milyon dollarlıq ticarət dövriyyəsinin yaxın gələcəkdə bir neçə dəfə artırılması proqnozlaşdırılır. Azərbaycanda Ələt Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi, Qazaxıstanda Aktau limanının yenidən qurulması Şərq-Qərb nəqliyyat dəhlizində ölkələrimizin qarşısında yeni imkanlar açır. Bundan əlavə, Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə istiqamətində Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu üzrə yükdaşımalar Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsindən sonra dəfələrlə artacaqdır.

Azərbaycan və Qazaxıstanın strateji coğrafi mövqeyi ölkələrimizin iqtisadi əlaqələrinin çoxvektorlu olmasına şərait yaradır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti Xəzərdən Avropaya doğru, Qazaxıstandan şərqə doğru neft və dəmir yolu xətləri isə Çin istiqamətində vahid dəhliz yaradır. Yeni minillikdə Çinin irəli sürdüyü və həyata keçirməyə başladığı "İpək Yolu İqtisadi Kəməri"nin Şərqlə Qərb arasında ən böyük qovşaq olması gözlənilir. "Bir kəmər-bir yol" təşəbbüsü adlandırılan bu dəhliz Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın yeni istiqamətləri üçün mühüm perspektivlər vəd edir.

Beləliklə, diplomatik münasibətlərin qurulduğu 25 il ərzində iki qardaş və dost ölkə olan Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası siyasi, iqtisadi, ticari, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsinə qaldırmışlar. Türk dünyasının bu iki yüksələn ulduzu gündən-günə bütün dünyada böyük hörmətlə qarşılanır və etibarlı tərəfdaş kimi tanınır. Əsrin dörddəbiri ərzində keçilən yol qarşıdakı 25 ildə daha uğurlu əməkdaşlıq vəd edir.

# HEYDƏR ƏLİYEV OLMASAYDI, BU FOTOŞƏKİLLƏR BƏLKƏ DƏ OLMAYACAQDI

***1986-cı il avqustun 31-də Krım-Qafqaz xətti boyunca kruiz reysini həyata keçirən “Admiral Naximov” adlı sovet sərnişin teploxodu Novorossiyskdən 15 kilometr aralıda qəzaya uğradı. “Arqumentı ı faktı” qəzeti bu faciənin ildönümü ilə əlaqədar, həmin nəşrin fotoqrafı Vladimir Svartseviçin xatirələrini dərc edib. Qəzetdə, həmçinin “Admiral Naximov” teploxodunun qəzaya uğraması nəticəsində həlak olmuş insanların cəsədlərinin su altından qaldırılması üzrə əməliyyat zamanı çəkilmiş nadir fotoşəkilləri dərc olunub. Svartseviç deyir ki, bu reportaj olmaya da bilərdi: “Bütün bu fotoşəkilləri Sov.İKP MK Siyasi Bürosunun üzvü, Azərbaycanın gələcək Prezidenti Heydər Əliyevin sayəsində çəkmək mümkün oldu”.***

AZƏRTAC həmin reportajı təqdim edir.

X X X



Bu fotoşəkillər olmaya da bilərdi. 31 il bundan əvvəl “Admiral Naximov” teploxodu ilə bağlı dəhşətli faciə barədə ölkə vətəndaşlarına dərhal məlumat verilmədi. Sonradan, hadisə yerində nəinki faciənin baş verdiyi yeri, xilasedicilərin işini, hətta həlak olanların qohumlarının şəklini çəkməyi də qadağan etmişdilər... Bütün bunları Sov.İKP MK Siyasi Bürosunun üzvü, Azərbaycanın gələcək Prezidenti Heydər Əliyevin sayəsində çəkmək mümkün oldu. Bu şəkillərin demək olar ki, hamısı ilk dəfə dərc edilir. Lakin əvvəlcə bu hadisənin necə baş verməsini yada salaq.

Yayın son axşamında “Admiral Naximov” kruiz teploxodu Novorossiysk limanından Soçiyə tərəf yola düşdü. Bu, həmin gəminin son naviqasiyası idi. 1925-ci ildə inşa edilmiş teploxod artıq köhnəlmişdi və hesabdan silinməli idi. Teploxodda kruiz prestijli hadisə hesab edilirdi. Onun bortuna putyovka tapmaq çox çətin məsələ idi. Bir həftəlik kruizin dəyəri, göyərtənin sinfindən asılı olaraq 150 rubldan başlayırdı. Bu, mühəndisin və ya yüksəkixtisaslı fəhlənin bir aylıq əməkhaqqı demək idi. Belə bir şayiə yayılmışdı ki, Lev Leşşenkoya da həmin başıbəlalı reydə çətin tapılan putyovka təklif ediblər, lakin o, Soçidə qastrolda çox məşğul olduğuna görə bu təklifdən imtina edib. Deyilənə görə, o vaxt hələ çox məşhur olmayan Boris Moiseyevə də həmin faciəli reysdə prestijli tur təklif edilib. Moiseyev Alla Puqaçovanın ailəsinin dostu idi. Puqaçova öz qızı – o vaxt hələ yeniyetmə olan Kristina Orbakayteni tez-tez Moiseyevin himayəsində qoyub gedirdi. Moiseyev bu səyahətə Kristina ilə birlikdə getməyə Puqaçovadan icazə almaq üçün ona zəng edir, Puqaçova isə deyir ki, kruiz barədə düşünməyi belə ağlına gətirməsin.

Halbuki “Admiral Naximov” teploxodunda istirahət barədə çox yüksək rəylər söylənilirdi: laynerin bahalı tərtibatı sərnişinləri heyran edirdi. Turun hər bir günü diskoteka, hovuzda çimmə, açıq dənizdə günəş vannası qəbul etmə kimi proseduralarla zəngin bayram olurdu. Barlarda və restoranlarda spirtli içkilərin çox geniş çeşidi sərnişinləri mat qoyurdu. Amma həmin dövrdə partiya xadimləri quruda spirtli içkilərə qarşı barışmaz mübarizə aparırdılar.

Yayın son günündə yüngül meh əsdi. Laynerin yola düşməsi ləngiyirdi, min nəfərdən çox sərnişin hansısa bir mühüm şəxsin gəlməsini gözləyirdi. Laynerin cədvəl üzrə yola düşməsi üçün təyin edilmiş vaxtdan on dəqiqə keçməsinə baxmayaraq o hələ yerində idi – Dövlət Təhlükəsizlik Komitəsinin Odessa vilayəti üzrə idarəsinin rəisi general-mayor Krikunov öz ailəsi ilə bərabər teploxoda gəldi. Sonralar xilas edilmiş sərnişinlərin çoxu bu qəzanı çekistin gecikməsi ilə əlaqələndirərək deyirdilər ki, əgər o gecikməsəydi, bir saatdan sonra heç bir faciə də olmazdı. Lakin indi artıq heç kəs bunu bilməyəcək.

Girəcəyində eni 9 kilometr olan Semesskaya buxtasında yalnız iki gəminin bir-birindən aralanması nəzərdə tutulmuşdu. Bu məsələ hətta təcrübəsi çox olmayan kapitan üçün də mürəkkəb görünmürdü. Buxtadan çıxan “Admiral Naximov” ilə üzbəüz Kanadadan arpa gətirən “Pyotr Vasev” yük gəmisi gəlirdi. 1981-ci ildə inşa edilmiş bu müasir gəmi yüksək möhkəmliyi ilə fərqlənirdi. Onun sualtı hissəsi güclü bulba (gəminin burun hissəsində su xəttindən aşağıda yerləşən xüsusi çıxıntı belə adlanır. O, gəminin daha sürətli və daha asan hərəkət etməsinə imkan verir) ilə təchiz olunmuşdu. Lakin həmin gecə bulba nəhəng taran kimi işlədi.

Sonradan istintaq bu nəticəyə gələcək ki, hər iki gəminin kapitanları cinayətkarcasına səhlənkarlığa yol veriblər. Onlardan biri gəmilərin necə aralanacağını digər kapitanla razılaşdırmayıb, ikincisi isə yol verməyə çox gec başlayıb... Lakin o vaxt göyərtədəki insanlar təkcə bunu gördülər ki, nəhəng qara yük gəmisi böyük sürətlə onların üstünə gəlir. “Pyotr Vasev” laynerin sağ bortuna pərçim oldu və onun bulbası sözün hərfi mənasında teploxodu sökdü. Altı göyərtəli “Naximov” 8 dəqiqə ərzində sahildən 4 kilometr məsafədə batdı. Teploxodun göyərtəsindəki 1243 nəfərdən 423-ü həlak oldu. Sonradan mütəxəssislər hesablamışdılar ki, gəmilərin bir-birindən aralanması üçün cəmi 6 saniyə çatışmayıb.





АРГУМЕНТЫ И ФАКТЫ AIF.RU | ГЛАВНАЯ | СВЕЖИЙ НОМЕР | ОБЩЕСТВО | ПРОИСШЕСТВИЯ | ПОЛИТИКА | ДЕНЬГИ | КУЛЬТУ

**Боль катастрофы «Адмирала Нахимова». История одного фоторепортажа**

Фотограф «АиФ» Владимир Сварцевич впервые публикует уникальные снимки операции по подъему тел погибших при крушении теплохода «Адмирал Нахимов». Этого репортажа могло не быть, но снимки навсегда оставили память о погибших.

На причале №15. © / Фото: Владимир Сварцевич / Из личного архива

Этих фотографий могло не быть. Ужасающая трагедия теплохода «Адмирал Нахимов», произошедшая 31 год назад, даже не сразу стала известна гражданам страны. Затем, уже на месте, запрещали снимать родственников погибших, не говоря уже про само место трагедии, работу спасателей... Все это удалось снять благодаря **члену Политбюро КПСС, будущему первому президенту Азербайджана Гейдару Алиеву**. И почти все снимки публикуются впервые.



Hadisənin ertəsi gün mən Novorossiyskə gəldim. Şəhərdə sakitlik idi. Restoranlarda və kafelərdə musiqi səsi eşidilmir, şəhər sakinləri pıçıltı ilə danışır, faciə barədə son xəbərləri bölüşürdülər. Rəsmən matəm elan edilməmişdi. Amma həmin gün Krasnodar diyarında səfərdə olan Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçov Novorossiyskə gəlməyə və həlak olanların qohumlarına başsağlığı verməyə “vaxt tapmamışdı”.

Lakin “ölüm konveyeri” artıq işə düşmüşdü – Novorossiysk gəmiqayırma zavoduna 150 sink tabut hazırlamaq barədə ilk xüsusi sifariş daxil olmuşdu. Xilas edilmiş insanları xəstəxanalarda və mehmanxanalarda yerləşdirirdilər. Onların hər biri qeydiyyatdan keçirdi. Lakin xilas edilənlərdən çoxunun doğmaları və yaxınları, uşaqları dənizdə qalmışdı. Dəniz vağzalının şüşə divarı “sitəm divarı”na çevrilmişdi: bədbəxt insanlar gözlərini “Admiral Naximov” teploxodunun qərq olduğu dənizə zilləyib, bu divara qısılırdılar.

Novorossiysk limanındakı 15-ci körpünü hələ də “dəfn körpüsü” adlandırırlar. Həlak olanların cəsədləri yüklənən 5 vaqon-refrijerator məhz bu körpünün yanında dayanmışdı. Bu, yüzlərlə sovet ailəsinin faciəsi idi. Boğulub ölənlərin cəsədlərini 15-ci körpüyə çatdırmazdan əvvəl onların hamısının fotoşəklini çəkir, sonradan meyitləri tanımağa imkan verə biləcək paltarları və zinət əşyalarını təsvir edirdilər. Meyitlərin qarət edilməsi halları olmamışdı. Zərər avtomatik şəkildə ödənilirdi – Sov. İKP MK-nın qüdrətli Siyasi Bürosu belə sərəncam vermişdi. O vaxt faciənin səbəblərinin təhqiqatı üzrə hökumət komissiyasının rəhbəri Heydər Əliyev idi.

Həlak olanların fotoşəkillərini xüsusi albomlara yığıb onların qohumlarına göstərirdilər. Tanınma prosesi belə baş verirdi. Zalda kəskin dərman iyi gəlirdi. Bəzən həlak olanların qohumları əsəb sarsıntısına davam gətirmir, tappıltı ilə yerə yıxılırdılar. Həkimlər həlak olanların huşunu itirmiş qohumlarına kömək etmək üçün bir yerdən başqa yerə qaçırdılar.

Mən ilk dəfə idi ki, bu cür şəkillər çəkməli olmuşdum. Bu, çox çətin idi – göz yaşlarım aramsız axırdı. Birdən zala balaca boylu, gözlərinə yekə eynək taxmış bir insan daxil oldu. Pencək geyinmiş insanların əhatə etdiyi bu adam kolxoz partiya komitəsinin katibini xatırladırdı. Lakin yaxşı deyiblər ki, “rəisləri sifətlərindən tanımaq lazımdır”. O, mənim əlimdəki fotoaparatı görüb, ağzı köpüklənə-köpüklənə bərkdən qışqırır, əllərini açaraq deyirdi: “Sən kimsən? Jurnalistsən? Burada insanların dərdi var, siz isə öz kameranızı onların üzünə zilləmisiniz. Rədd olun buradan!”.

O vaxt əsəbi vəziyyətdə olduğumdan, ona dişimin dibindən çıxanı dedim. İki milis işçisi məni küçəyə çıxartdı. Yalnız orada bildim ki, “uzağa göndərdiyim” adam Sov. İKP MK-nın üzvü, Krasnodar vilayət partiya komitəsinin birinci katibi İvan Kuzmiç Polozkov imiş. Əgər bilsəydim...Bəlkə də işimin xatirinə bu partiya xadiminin məni təhqir etməsinə dözərdim. Artıq aydın idi ki, Moskvaya “teleqa” (teleqram-AZƏRTAC) gedəcək və mən ən azı partiya biletimi “stolun üstünə qoymalı" olacam.

Novorossiysk şəhər partiya komitəsinin əməkdaşları dərhal mənim üçün Moskvaya gedən təyyarəyə bilet aldılar. Bilet cəhənnəm, amma bu faciə barədə şəkillərin heç birisi olmaya bilərdi.

Axşam yola düşməzdən əvvəl Dənizçilərin Mədəniyyət Sarayına getdim. Orada xüsusi hökumət komissiyasının rəhbəri – o vaxt Sov.İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyev “Admiral Naximov” teploxodunda həlak olanların qohumları ilə görüşürdü.

Polozkov məni zalda görən kimi, barmağı ilə məni göstərərək Əliyevə şikayət etməyə başladı. Onda Əliyev dedi: “İvan Kuzmiç, mən hesab edirəm ki, müxbirlər cinayətkar səhlənkarlığın hansı müsibət bahasına başa gəlməsini sovet xalqına söyləməyə borcludurlar! Mən jurnalistlərə nə ilə kömək edə bilərəm?”. Bu sözlərdən sonra Polozkov hərfən büzüşdü. Mən isə bütün zalın eşidəcəyi səslə qışqırdım: “Yoldaş Siyasi Büro üzvü, fəlakət yerinə getmək üçün helikopter, kater, maşın lazımdır. Dalğıcların necə işlədiyini göstərmək lazımdır. Ən başlıcası, senzur məsələsini həll etmək lazımdır! Əks halda onlar hamısını kəsib doğrayacaqlar!”. Heydər Əliyev başını tərpədərək öz köməkçilərinə müraciətlə uca səslə dedi: “Jurnalistlərə kömək edin! Mənim adımdan! Senzur məsələsini həll edin”.

Siyasi Büro üzvü sözün üstündə dayandı. Məni Moskvaya deportasiya etməyə hazırlaşan məmurlar isə Əliyevin dediklərinin hamısını yerinə yetirərək, bizə kömək etdilər. Tezliklə plyonkaları içərisində həlak olanların cəsədləri olan sink tabutları daşıyan təyyarənin baqaj bölməsində redaksiyaya göndərdim.

Sonra isə “Hepard” xilasetmə gəmisindəki dalğıclarla gərgin söhbətimiz oldu. Onlar hər gün, sutkada bir neçə dəfə suda batmış “Admiral Naximov” teploxoduna enir və hər dəfə 10-15 cəsəd tapırdılar. Cəsədləri göyərtələrdə açılmış deşiklərdən dartıb çıxarırdılar. Gəminin içində işləmək dəhşətli idi. Hər yerdə mebel üzürdü, xüsusən yuxarı göyərtəyə çıxış yollarındakı dəhlizlərdə onlarca cəsəd yığılıb qalmışdı. Göyərtələrin bağlı qalmış qapılarını linglərlə sındırıb açmaq lazım gəlirdi. Dalğıclardan biri xatırlayırdı ki, su basmış göyərtədə güclü sualtı cərəyan bir ölü matrosun əllərini “dirijor kimi” tərpədir, sanki dalğıclara xəbərdarlıq edirdi: bura çox təhlükəlidir. Dalğıcların əsəbləri tab gətirmirdi: onlar ilk 18 gün ərzində 280-dən cəsəd çıxarmışdılar. Həlak olanların siyahısında həmin gün gecikmiş çekistin ailəsi də vardı. Onları göyərtədə tapdılar. DTK generalı Krikunovun özünün meyitini dalğıclar yuxarı göyərtəyə aparan pilləkənin altında tapmışdılar. Generalın əynində idman kostyumu, qucağında azyaşlı nəvəsi vardı.

O vaxt bütün cəsədləri sudan çıxarmaq mümkün olmadı. Batmış gəminin içərisində işləmək ağlasığmaz dərəcədə təhlükəli olurdu. İki dalğıc həlak olandan sonra axtarışlar dayandırıldı. 64 sərnişinin cəsədi dənizin dibində qardaş məzarında qaldı. “Admiral Naximov” teploxodu hələ də Semesskaya buxtasında 47 metr dərinlikdə qalır.

Bu fotoşəkillərin çoxu ilk dəfə dərc edilir. İnsanları sudan xilas edənlərə, həlak olanların qohumlarının onlarla vidalaşmaları üçün öz həyatlarını riskə məruz qoyaraq bu cəsədləri gəmidən çıxaranlara təşəkkür edirəm. O vaxt Semesskaya buxtasında həlak olanların xatirəsi əbədi yaşayacaq.

# RUSİYA PREZİDENTİ “İPƏK YOLU” LAYİHƏSİ HAQQINDA



***“Biz Şimal dəniz yolu üzrə birgə işi fəal müzakirə edirik. Biz digər marşrutları öyrənirik. Məsələn, “Şimal-Cənub” marşrutunu. Biz Hindistanın Baş naziri ilə qeyd etmişik ki, konteynerlərin birinci partiyası İran və Azərbaycandan keçməklə artıq Sankt-Peterburqa çatıb və geri qayıdıb. Bütün bunlar praktik planda öyrənilir. Hansı daha effektiv olacaq? Test sınaqlarına baxarıq və ən optimal qərarı seçərik”.***

Bu fikirləri Rusiya Prezidenti Vladimir Putin BRİKS sammiti çərçivəsində keçirilən mətbuat konfransında “İpək yolu” layihəsi haqqında suala cavab verərkən söyləyib.

Vladimir Putin qeyd edib ki, Rusiyanın xüsusi idarə və şirkətləri və digər ölkələrdən tərəfdaşlar İpək yolunun çəkilməsi məsələsini öyrənirlər. “Qazaxıstandan avtomobil yolu praktik olaraq çəkilib. Biz işimizin özümüzə aid hissəsini vaxtında yerinə yetirməliyik. Çindən də yol gedir. Dəmir yolu marşrutlarına gəldikdə burada müxtəlif variantlar ola bilər: Qazaxıstandan keçməklə sonra bir qədər şərqə və cənuba, İrana doğru, ya da Rusiya ərazisindən keçməklə”, - deyə Rusiya Prezidenti bildirib.

Onun sözlərinə görə, Çin hökuməti Moskva-Kazan yüksəksürətli dəmir yolunun inşasında iştirak etməyi planlaşdırır. Rusiya ərazisindən keçməklə yüksəksürətli sərnişin-yük dəmir yolunun mümkünlüyü müzakirə edilir. “Əgər bu layihə reallaşdırılarsa, onda qatarların 200 km/saat sürətlə hərəkətini mümkün edə bilər. Bu o deməkdir ki, 3-4 günə yük Çindən, deyək ki, Almaniyaya çatdırılacaq. Bunlar çox maraqlı, perspektivli, lakin dəqiqləşdirilməsi tələb olunan layihələrdir”, - deyə Rusiya Prezidenti vurğulayıb.

***Fəridə Abdullayeva***

# İLİN SONUNADƏK KURIKDƏN ƏLƏTƏ 500 MİN TON NEFT MƏHSULLARININ İXRACI PLANLAŞDIRILIR

***Cari ilin sonuna qədər Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun tərkib hissəsi olan “Kurık” portundan “Ələt” portuna - Bakıya təqribən 500 min ton neft məhsullarının ixracı planlaşdırılır.***

Qazaxıstanın “Khabar News” xəbər agentliyi xəbər verir ki, böyük miqyaslı tranzit yolunun yaradılması haqqında müqaviləni Azərbaycan, Qazaxıstan və Gürcüstan imzalayıb. Transxəzər marşrutu Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə, Ukraynadan keçməklə Avropaya qədər uzanır. Belə nəqliyyat dəhlizi əhəmiyyətli dərəcədə vaxta qənaət edir, Kurık limanından çıxan yük Ələtdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına 18 saata nəql edilir.



# XƏZƏRİN SƏVİYYƏSİNİN QALXMASI TEZLİKLƏ DAYANACAQ

***Apardığımız kompleks araşdırmalar bir neçə onillikdən sonra Xəzəri nələr gözlədiyini dəqiq proqnozlaşdırmağa imkan verəcək. Belə bir təhlükə var ki, Azərbaycan torpaqlarının bir hissəsi səhralaşmağa məruz qala bilər. Qəribə də olsa bu, Xəzər dənizinin səviyyəsinin dəyişməsi ilə bağlıdır.***



Bu barədə AMEA Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov Rusiya Elmlər Akademiyasının “Poisk” qəzetinə müsahibəsində məlumat verib. Alim “Xəzər dənizini hansı gələcək gözləyir?” başlığı ilə çap olunmuş yazısında Xəzər dənizinin Xəzəryanı ölkələr və Azərbaycan üçün əhəmiyyəti, hazırkı vəziyyəti və gələcək taleyi ilə bağlı fikirlərini bölüşüb.

“Bu yaxınlarda “National Geographic” jurnalında yazıblar ki, tezliklə Azərbaycan ərazisinin üçdə iki hissəsi suya qərq olacaq. Mən buna əsla inanmıram. İlk dəfə belə bir proqnozu 1992-ci ildə mənim dostum, Xəzər problemləri üzrə idarələrarası elmi şuranın sədri və A.M.Obuxov adına Fizika İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Georgi Qolitsın vermişdi. O, hətta AMEA-ya bu barədə xəbərdarlıq teleqramı göndərmişdi ki, bilin, Qız qalası suyun altında qalacaq. Son altı yüz il ərzində belə hadisə olmayıb. Su Qız qalasının ətəyinə bir qədər yaxınlaşıb. Son üç min ildə aparılmış müşahidələrə görə Xəzər dənizinin səviyyəsinin dəyişməsi 15 metrdən çox olmayıb”, -deyə akademik bildirib.

R.Məmmədov “Keçən əsrin 70-ci illərinin axırlarından 90-cı illərinin ortalarına qədər Xəzərin səviyyəsi 2,5 metr artıb və bu, Xəzəryanı dövlətlərə 2 milyard dollar ziyan vurub” fikrinə münasibət bildirərək qeyd edib ki, Qazaxıstanda neft buruqları, bizdə isə neft platformaları hazırlanan zavodun köməkçi qurğuları su altında qalmışdı. Bakı dənizkənarı bulvarındakı ekzotik ağaclar məhv oldu. İtkilər böyük olub, lakin bunun təqsiri təbiətdə deyil, inadkarlıq edən insanlardadır. Məlumdur ki, Xəzərin səviyyəsi adətən ildə 30-40 santimetrə qədər qalxıb-enir. Buna səbəb dənizə tökülən çayların suyu, suyun buxarlanmasıdır. 1837-ci ildən Xəzərin səviyyəsi ilə bağlı meteoroloji müşahidələr aparılır. Məlum olub ki, dəniz səviyyəsinin ciddi dəyişmələri 11 il dövriliklə baş verir. Bizim fikrimizcə bu, günəşin aktivlik dövrləri ilə bağlıdır. Hesab edirik ki, 2020-ci ildə Xəzərin səviyyəsi 27 metrə yaxın düşəcək. Lakin bu, heç də o demək deyil ki, indi sahilin yaxınlığında avtomobil yolları, zavodlar tikmək olar.

“Bədbin proqnozlarla heç vaxt razılaşmamışam və indi də razılaşmıram. 1993-cü ildə Parisdə, 1995-ci ildə Tehranda keçirilmiş iqlimə dair konfranslarda çıxış edib demişəm ki, Xəzərin səviyyəsinin qalxması tezliklə dayanacaq və kiçik tərəddüdlərlə sabitləşmə dövrü başlanacaq”.



## BİRBAŞA DƏNİZ XƏTTİ AÇILIB

***Qətər ilə Türkiyə arasında ilk birbaşa dəniz xətti açılıb.***

Anadolu agentliyi xəbər verir ki, Qətər ilə İzmir limanı arasında 5 min tondan çox yük daşımaları həyata keçiriləcək.

Ayda bir dəfə Türkiyədən yola çıxacaq gəmi 11 günə Qətərə çatacaq.

Birbaşa dəniz xətti həm Türkiyə-Qətər iqtisadi əməkdaşlığına, həm də limanlar arasında əlaqələrin gücləndirilməsinə müsbət təsir edəcək.

## KOREYA RESPUBLİKASININ HƏRBİ-DƏNİZ QÜVVƏLƏRİ YAPON DƏNİZİNDƏ YENİ TƏLİMLƏR KEÇİRİB

***Koreya Respublikasının hərbi-dəniz qüvvələri Yapon dənizində yeni təlimlər keçirib.***

Məqsəd rəsmi Seulun Şimali Koreyaya qarşı güc tətbiqi variantına da hazır olduğunu nümayiş etdirmək olub. Təlimlərə friqad, patrul və sürətli gəmilər cəlb olunub. Cənubi Koreya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi bildirib ki, təlimlərin məqsədi istənilən hərbi təxribata dərhal cavab veriləcəyini nümayiş etdirməkdir. Rəsmi Seul, həmçinin Şimali Koreyanın yeni raket sınağına hazırlanması ilə bağlı xəbərdarlıq edib.

Xatırladaq ki, Koreya Xalq Demokratik Respublikası növbəti dəfə nüvə silahını sentyabrın 3-də sınaqdan keçirib.



## CƏNUBİ KOREYA SAHİLLƏRİNDƏ GƏMİLƏR TOQQUŞUB

***Renxap agentliyinin sahil mühafizəsinə istinadla yaydığı məlumata görə, Yapon dənizində Pxoxan limanı yaxınlığında balıqçı gəmisi barj ilə toqquşub.***

RİA Novosti agentliyi xəbər verir ki, gəmilərin toqquşması nəticəsində iki nəfər ölüb, bir nəfər itkin düşüb. Xilasedicilərin sudan çıxardığı iki balıqçı xəstəxanaya çatdırıldıqdan sonra ölüb. Üçüncü balıqçının axtarışları davam etdirilir. Toqquşmanın səbəbini müəyyənləşdirmək məqsədilə sahil mühafizəsi tərəfindən təhqiqat aparılır.




## BALIQÇI GƏMİSİ SAXLANILIB

***Rumıniyanın sahil mühafizə xidməti 87 miqrantın olduğu balıqçı gəmisini Midia limanı yaxınlığında həbs edib. Gəmini Qara dənizə nəzarət üçün nəzərdə tutulmuş interaktiv sistem (SCOMAR) vasitəsilə saxlamaq mümkün olub.***

Rumıniya sərhəd xidmətinin məlumatına əsasən, ölkəyə qeyri-qanuni daxil olmaq istəyən və həbs olunan xarici vətəndaşların sayı birinci rübdə 1437, qeyri-qanuni ölkədən çıxmaq istəyənlərin sayı isə 1037 olub. Bu keçən ilin rəqəmləri ilə müqayisədə bir neçə dəfə artıqdır.

## İNDONEZİYA VƏ BAKI LİMANI ARASINDA KADRLARIN HAZIRLANMASINA DAİR FİKİR MÜBADİLƏSİ APARILIB





***İndoneziya və Bakı limanı arasında kadrların hazırlanmasına dair fikir mübadiləsi aparılıb.***

Bu barədə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən məlumat verilib. İndoneziya Liman Korporasiyasının icraçı direktoru Elvyn G. Masassya və nümayəndə heyəti Ələt qəsəbəsində yerləşən Yeni Bakı Limanına səfər ediblər. Səfər zamanı "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov Bakı Limanında yaradılan şərait və Azad Ticarət Zonası ilə bağlı qonaqlara məlumat verdikdən sonra əyani olaraq limanı yaxından müşahidə ediblər. Həmçinin iki liman arasında kadrların hazırlanması və rəqəmsal liman sisteminin qurulmasına dair fikir mübadiləsi aparılıb.

Cari ilin may ayında İndoneziyanın Bali şəhərində İndoneziya Liman Korporasiyası ilə Bakı Limanı arasında anlaşma memorandumu imzalanıb. İndoneziya Liman Korporasiyası, eyni zamanda, 2015-ci ildə Dünya Limanları arasında ilk 30-luğa daxil olubdur.

## TAP LAYİHƏSİNİN 50 FAİZDƏN ÇOXU İCRA EDİLİB

***Azərbaycan təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) qaz boru kəməri layihəsinin 50 faizdən çoxu icra edilib.***

TAP konsorsiumundan bildirilib ki, görülən işlərə mühəndislik, satılma və tikinti işləri daxildir. Boru kəmərinin tikintisi işlərinə başlanılandan ötən təxminən 16 ay ərzində layihə üzrə 16 milyon adam/saat iş görülüb.

TAP-ın 765 kilometrlik Yunanıstan və Albaniya hissəsində boru kəməri marşrutunun təxminən 539 kilometri, yəni 70 faizi təmizlənib. Qaynaq edilən boruların 45 faizdən çoxu döşənib.

Boru kəmərinin tikintisində istifadə olunacaq 55 min borunun təxminən 95 faizi Yunanıstan, Albaniya və İtaliyaya çatdırılıb. TAP-ın dəniz hissəsində istifadə olunacaq boruların sonuncu partiyası isə sentyabrın 3-6-da İtaliyanın Brindisi bölgəsində boşaldılıb. TAP-ın keçdiyi ölkələrdə ümumilikdə 5 min 500 nəfər işçi çalışır.

TAP-ın icraçı direktoru Luca Schieppati deyib: "Boru kəməri üzrə işlərin vaxtında və büdcəyə uyğun icra olunur. Bu da o deməkdir ki, "Şahdəniz-2" üzrə ilk qaz 2020-ci ildə Avropaya çatdırılacaq".

Qeyd edək ki, TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub Qaz Dəhlizi"nin bir seqmentini təşkil edir. Boru kəmərinin təməli keçən il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. Buraya 2009-cu ildən bəri davam edən dizayn və mühəndislik işləri də daxil edilib. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ilin sonunda Türkiyəyə və Gürcüstana həyata keçirəcək. Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır. Bu ilin ilk rübündə layihə üzrə kompressor stansiyalarının tikintisinə də başlanılacaq. Boru kəmərinin dəniz hissəsi isə 2018-2019-cu illərdə inşa ediləcək.



Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsi Cənubi Qafqaz Boru Kəmərinin və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan TAP boru kəməri Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəməri burada "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulub.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan–550 kilometr, Albaniya–215 kilometr, Adriatik dənizi–105 kilometr, İtaliya–8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə-37 düym). Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

## İTKİN DƏNİZÇİLƏRİN CƏSƏDLƏRİ QƏZAYA UĞRAMIŞ ESMİNESİN BÖLMƏLƏRİNDƏ AŞKAR EDİLİB



***Malokko boğazında ticarət gəmisi ilə toqquşan ABŞ-ın "John S.McCain" esminesinin itkin dənizçilərinin qalıqları həmin gəminin su dolmuş bölmələrində aşkar edilib.***

Bu barədə ABŞ hərbi-dəniz qüvvələrinin Sakit okean komandanlığının rəhbəri Skott Svift məlumat verib.

Komandanlığın "Facebook" səhifəsində birbaşa yayımlanan mətbuat konfransında S.Svift deyib: "Bu gün axtarış əməliyyatı zamanı dalğıclar su dolmuş bölmələrdə bir neçə cəsəd aşkar ediblər. Hazırda onların tanınması istiqamətində iş aparılır".

Onun dediyinə görə, axtarış-xilasetmə əməliyyatları dənizçilərin hamısının cəsədləri tapılanadək davam etdiriləcək. S.Svift, həmçinin itkin xəsarət almış dənizçiləri ziyarət etdiyini və onların özlərini yaxşı hiss etdiyini də deyib.

Xəbər verdiyimiz kimi, ABŞ-ın "John S.McCain" esminesi avqustun 21-də səhər saatlarında Sinqapurdakı limana doğru hərəkət edərkən Malakko boğazında "Alnic MC" ticarət gəmisi ilə toqquşub. Nəticədə esminesin 10 dənizçisi itkin düşüb, beş nəfər isə yaralanıb. Qəzadan sonra esmines Sinqapurun Çanqi limanına yan alıb. Hazırda davam edən axtarış-xilasetmə əməliyyatında Sinqapurun hərbi donanması, sahil mühafizəsi, eyni zamanda ABŞ-ın hərbi-dəniz qüvvələrinin "Amerika" gəmisində yerləşən helikopter və konvertoplanlar iştirak edir.

ABŞ hərbi-dəniz qüvvələrinin yeddinci donanmasının bildirdiyinə görə, toqquşma nəticəsində esmines ciddi xəsarət alıb. Bir neçə kayut, maşın salonu və rabitə otağı su ilə dolub.

*Vüqar Ağayev*




## BARJIN BATMASI NƏTİCƏSİNDƏ İKİ NƏFƏR İTKİN DÜŞÜB

***NHK telekanalı xəbər verir ki, Naqasaki prefekturasının sahillərində barjın batması nəticəsində iki nəfər itkin düşüb.***

"Aoi-maru" adlı 100 ton su tutumlu barj Kyuşu və Hirado adalarını birləşdirən Hirado körpüsündən dörd kilometr məsafədə batıb. Heyət üzvlərindən dördü yaxınlıqdakı gəmi tərəfindən xilas edilib. Onlardan birinin sözlərinə görə, barjın göyərtəsində daha beş nəfər olub.

Yaponiya Dənizdə Təhlükəsizlik Xidməti hazırda axtarışları davam etdirir və qəzanın baş verməsi səbəblərini araşdırır.



## XİLAS EDİLMİŞ TURİSTLƏR SAHİLƏ SAĞ-SALAMAT ÇATDIRILIBLAR

***Misir KİV-lərinin yaydığı məlumata görə, sentyanrın 7-də ölkənin hərbi-dəniz donanmasının qüvvələri Qırmızı dənizdə batan qayıqdakı 9 malayziyalı turisti və səkkiz misirlini xilas ediblər.***

Xilas edilmiş turistlər sahilə sağ-salamat çatdırılıblar.

Daxil olmuş məlumata əsasən Qırmızı dənizdəki Xilasetmə Əməliyyatları Departamenti dənizin şimalında turist qayığının batması barədə siqnal alıb. Xilasetmə əməliyyatına dərhal ölkənin hərbi-dəniz qüvvələri və sahil mühafizəsi xidməti qoşulub. Nəticədə malayziyalı və misirli turistlər xilas edilib, lakin bir misirli dalğıc itkin düşüb.

*Asya Hacızadə*



## ARALIQ DƏNİZİNDƏ 450-DƏN ÇOX MİQRANT XİLAS EDİLİB

***Liviyanın sahil mühafizə xidmətinin əməkdaşları Aralıq dənizində 450-dən çox miqrantı xilas ediblər.***

Bu barədə Reuters agentliyi Liviya hərbi dəniz qüvvələrinə istinadla məlumat yayıb.

Sahil mühafizə xidməti Tripolidən qərbdə 140 miqrantı, Sabrata şəhəri yaxınlığında isə 7-si qadın, 6-sı uşaq olmaqla 164 miqrantı xilas edə biliblər. Həmçinin təqribən 150 nəfərdən ibarət daha bir qrupun xilas edildiyi bildirilib. Miqrantlar Misir, Mərakeş və Tunisin vətəndaşlarıdır.



## BATAN HƏR QAYIQDA 20-25 MÜSƏLMAN OLUB

***Myanmada ordunun təzyiqindən qaçan müsəlmanları daşıyan iki qayıq batıb. Nəticədə 11 nəfər həlak olub.***

Anadolu Agentliyi xəbər verir ki, hər qayıqda 20-25 insan olub.

Myanmadan qaçmaq istəyən on minlərlə müsəlman Banqladeşə keçmək üçün sərhəd bölgəsində gözləyir.



## NAF ÇAYI UZUN İLLƏRDİR Kİ, İNSANLARIN ZÜLMDƏN QAÇIŞ YERİDİR

***Myanmanın Arakan vilayətində həyata keçirilən əməliyyatlardan qaçaraq Banqladeşə getmək istəyən insanları daşıyan gəmi Naf çayında batıb.***

Anadolu agentliyi xəbər verir ki, nəticədə 19 nəfər həlak olub. Onlardan 10-u uşaq, 9-u qadındır.

Arakan vilayəti ilə Banqladeş arasında yerləşən Naf çayı uzun illərdir ki, insanların zülmdən qaçış yeridir.

# AXDG-NİN 160 İLLİYİ QARŞISINDA

## “UNUTSAQ, UNUDULARIQ”

### NURLU İNSAN



Ələsgər Məmmədhüseyn oğlu Hacıyev 1918-ci il aprelin 28-də İçərişəhərdə dünyaya göz açıb. Atası Məmmədhüseyn Hacıyev tanınmış hüquqşünas, anası Bikə xanım Mirağayeva seyid nəslinin nümayəndəsi olub. Mehriban ailədə altı övlad – iki oğlan və dörd qız böyüyüb.

Uşaqlıqdan kitaba, elmə böyük həvəs göstərən Ələsgər Hacıyev 132 №-li orta məktəbi müvəffəqiyyətlə bitirərək Azərbaycan Sənaye İnstitutuna daxil olub.

İnstitutun son kursunda oxuyarkən başlayan Böyük Vətən müharibəsi gənc Ələsgərin həyatında sərt dönüş yaradır. Təhsilini başa vuran kimi, 1941-ci ilin dekabrında Moskvaya – Zirehli Tank və Mexanikləşdirilmiş Qoşunlar Akademiyasına gedərək, hərbi mühəndis-mexanik ixtisası üzrə tezləşdirilmiş ikiillik kursları bitirir. Bundan sonra Ələsgər Məmmədhüseyn oğlu Birinci Ukrayna cəbhəsinin zirehli tank qoşunları tərkibində Berlinə kimi şərəfli döyüş yolu keçir. Stalinqrad şəhərinin və Qafqazın müdafiəsində, Berlinin alınmasında göstərdiyi igidliyə görə orden və medallara layiq görülür.

Ələsgər Hacıyev baş leytenant rütbəsində ordudan tərxis edildikdən sonra elmi və pedaqoji fəaliyyətlə məşğul olur. 1952-ci ildə Azərbaycan Dövlət Universitetində işlədiyi zaman namizədlik dissertasiyasını müdafiə edir.

Müdafiədən bir qədər keçmiş dərin biliklə yanaşı, fəallığı və işgüzarlığı ilə seçilən alimə Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun Bakıda filialını təşkil etmək həvalə edilir. O zaman respublika iqtisadiyyatının aparıcı sahəsi olan dəniz nəqliyyatında ali savadlı mütəxəssislərə kəskin ehtiyac vardı. Ələsgər Hacıyev gərgin əmək və böyük təşkilatçılıq qabiliyyəti tələb edən bu işin öhdəsindən bacarıqla gəlir və sözügedən tədris ocağının fəaliyyətə başladığı 1958-ci ildən etibarən 26 il ərzində əvəzedilməz dekanı olur, yüksəkixtisaslı kadrların hazırlanması üçün əlindən gələni əsirgəmir. Təmkini və tələbkarlığı ilə seçilən Ələsgər müəllim hədsiz dərəcədə vətənpərvər, alicənab, səmimi və həssas qəlbli insan kimi kollektivdə böyük nüfuz və hörmət sahibi olur.

Həmin müddətdə adıçəkilən təhsil ocağını 3 minə yaxın gənc bitirir və Xəzər Dəniz Gəmiçiliyinin tərəqqisinə sanballı töhfələrini verirlər. Onlardan çoxu öz uğurlu işi ilə vəzifə pillələrində sürətlə irəliləyir.

Ömrünü şərəflə, ləyaqətlə yaşayan, gənclərin dərin bilik almaları üçün var gücü ilə çalışan Ələsgər Hacıyev 1993-cü ildə haqq dünyasına qovuşsa da, xatirəsi bu gün də böyük ehtiramla yad edilir, nəcib əməllərindən məhəbbətlə söz açılır.

P.S. Uşaqlıqdan haqqında yalnız xoş sözlər eşitdiyim, atamın “nurlu insan” kimi xarakterizə etdiyi Ələsgər müəllim haqqında çoxdan yazmaq istəsəm də, təəssüflər olsun ki, zəruri materialları əldə edə bilmirdim. Köməyimə bir vaxtlar onun tələbəsi olan 84 yaşlı əmim gəldi və birgə İçərişəhərə gedib, Ələsgər müəllimin evini axtarmağı təklif etdi. Avqustun istisində axtarışın yaşlı insan üçün çətin olacağını nəzərə alıb, “Özüm taparam, siz əziyyət çəkməyin”,- dedim. Əmim “Ələsgər müəllimə görə hara lazım olsa gedərəm, əziyyət deyil” cavabını verdi. Vaxt itirmədik.

İçərişəhərin dolanbac küçələri ilə irəliləyən əmim “Sən narahat olma, mütləq tapacağıq”,- deyə mənə təsəlli verirdi. Tapdıq da! Amma bəlli oldu ki, Ələsgər müəllimin yaxınları on beş ildir bu evdən köçüblər. Gəlişimizin məqsədini bilən kimi, qonşusu ağbirçək İsmət xanım sevindi: “Nə yaxşı! Ələsgər müəllim kimi insan unudulmamalıdır. Mən sizə kömək edərəm.” Məhz İsmət xanım Ələsgər müəllimin qohumlarının tapılmasında və lazımi materialların əldə edilməsində mənə yaxından yardımçı oldu.

Müasir həyatımızda mənəvi aşınmanın artdığı, saf və ali dəyərlərin saxta dəyərlərlə əvəz edildiyi bir vaxtda Ələsgər müəllimlə bağlı hadisəni yaşlı nəslin nümayəndələrinin yaxşıları unutmağa haqqımızın olmadığı barədə keçdikləri dərs kimi də qəbul etmək olar.

Unutsaq, unudularıq.

**Sevda Abdullayeva,**
*Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin İctimaiyyətlə əlaqələr üzrə mütəxəssisi*

# “CƏNUB-QƏRB” BEYNƏLXALQ MARŞRUTUN İNKİŞAFINA DAİR KONFRANS KEÇİRİLİB




***Ukraynanın Odessa şəhərində “Cənub-Qərb” beynəlxalq nəqliyyat marşrutunun inkişafı üzrə Koordinasiya Komitəsinin iclası keçirilib.***

Tədbirdə “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov, İran, Gürcüstan, Ukrayna, eləcə də Polşa dəmir yollarının nümayəndə heyəti iştirak ediblər.

“Azərbaycan Dəmir Yolları” QSC-dən bildiriblər ki, tədbirdə Cavid Qurbanov çıxış edərək dəmir yolunda həyata keçirilən islahatlar, beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşması və ölkənin tranzit potensialının artırılması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr haqqında məlumat verib. Eyni zamanda, “Cənub-Qərb” marşrutu üzrə strateji əhəmiyyətli məsələlər, həmçinin marşrutun inkişaf perspektivləri Koordinasiya Komitəsi tərəfindən müzakirə olunub.

Müzakirələrdən sonra qərara alınıb ki, Hindistan-Fars Körfəzi-İran-Azərbaycan-Gürcüstan-Ukrayna-Avropa istiqaməti üzrə daşımaların optimallaşdırılmasına və həmçinin tərəflərin tranzit potensialının artırılmasına xidmət edəcək "Cənub-Qərb" nəqliyyat marşrutu üzərində əməkdaşlıq imkanları daha da genişləndirilsin. Həmçinin bu marşrut üzrə daşınacaq yüklərə iştirakçı ölkələrin dəmir yolları arasında birgə güzəştli tariflərin tətbiq edilməsi məsələsi araşdırılsın. Marşrut layihəsi Hindistandan, Fars körfəzi ölkələrindən, İran, Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa vasitəsilə konteyner yükünün Avropa İttifaqı ölkələrinə və əks istiqamətdə nəqlini nəzərdə tutur.

İclas iştirakçıları “Azərbaycan Dəmir Yolları” QSC-nin hazırladığı “Cənub-Qərb” beynəlxalq nəqliyyat marşrutunun inkişafı üzrə Koordinasiya Komitəsinin Müddəası layihəsini təsdiq ediblər.

Xatırladaq ki, Cənub-Qərb marşrutu Slavkuv-Paromnaya (1364 km), Paromnaya-Batumi (1050 km), Batumi-Bakı-Astara (982 km), Astara-Bəndər-Abbas (1915 km) məsafəsindən ibarətdir.

# MƏNİM TANIDIĞIM SEVDA XANIM...

## GECİKMİŞ ETİRAF

***Onun haqqında bəlkə də beş il, on il, on beş il əvvəl yazmalıydım. Ən azı ona görə ki, işinə vicdanlı münasibətindən, Gəmiçiliyə hədsiz bağlılığından, əvəzsiz və təmənnasız işlərindən xəbərim vardı. Əlli illik yubileyində də, “Tərəqqi” medalı ilə təltif olunanda da məndən səs çıxmadı... Onu daha yaxından tanımaq istəyimi saxladı məni? Bir insanın bu qədər yüksək mənəvi keyfiyyətlərə, zəngin daxili aləmə malik olduğuna başqalarını inandıra bilməyəcəyimmi çəkindirdi məni? Yoxsa yazımın da çox şeyi bəyənməyən bu xanımın ürəyindən olmayacağından ehtiyatlandım? Bilmirəm. Bəlkə də haqqında yazmaq üçün ən münasib vaxt indidir. Əvvəla, yaşımın və başımın elə bir vaxtıdır ki, yazı xatirinə yazı yazmıram, altında imzamı atdığım bütün yazılarda isə hər cümləmə, hər sözümə bütün məsuliyyətimlə cavabdeh olduğumu bir an unutmuram. Üstəlik bəzəksiz-düzəksiz qələmə alacağım bu yazıda kiməsə nəyəsə inandırmağa da lüzum yoxdur. Onu tanıyanlar, heç nəyin jurnalist uydurması olmadığına şahidlik edəcəklər, tanımayanların isə mənə elə gəlir ki, gec də olsa, onu yaxından tanımaları məsləhətdir.***



Sevda xanımla bir çox mövzularda həmsöhbət olmaq, fikir mübadiləsi aparmaq, düşüncələrini öyrənmək xoşdur. Bir çox mövzularda deyəndə sizə qəribə gəlməsin. Sevda xanım fiziklə danışanda fizik, tarixçi ilə danışanda tarixçi, rəssamla danışanda rəssam... olduğunu düşünürsən. Teatr tamaşalarını elə xırdalasın ki, tənqidçilərin çoxu heyran qalsın. İncəsənət, ədəbiyyat ... haqqında mülahizələri adamı maqnit kimi çəkir. Şeir və hekayələrimin, miniatürlərimin... ilk tənqidçisi də adətən o olur. Oxuyandan sonra çox vaxt rəyini bildirir. Qaraya qara, ağa da ağ deyir. İxtisasca jurnalist olmasa da yazı-pozuda mənəm-mənəm deyən çox həmkarımın bəlkə heç vaxt ucala bilməyəcəyi bir səviyyədədir. Qələmindən çıxan yazılarda yerində olmayan bir fikrə, bir artıq sözə, bir dil xətasına rast gəlməzsiniz. Bu qədər dərin bilik - çox şeydən məlumatlı olmaq üçün isə daim mütaliə etmək mütləqdir. Mütaliəyə vaxt hardan tapır? Üç il bir yerdə işlədiyimizdən İnzibati işlər və ictimaiyyətlə əlaqələr departamentinin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Sevda xanım Abdullayevanın işinin başından aşdığını bilirəm. Gecədən nə qədər vaxt “oğurlamaq” olar ki? Elə gündəlik mətbuatı izləmək üçün azı yarım-bir saat lazımdır. Sevda xanım isə “Dəniz”lə yanaşı, respublikamızda və xaricdə nəşr olunan onlarla qəzet və jurnalın daimi oxucusudur.

Elə bilməyin ki, bütün məsələlərdə fikirlərimiz üst-üstə düşür. Əksinə, Sevda xanım bu və ya digər mövzuda ən çox mübahisə etdiyim adamlardandır. İnsafən, hətta fikri ilə qəti razılaşmadığım məqamlarda da, arqumentləri o qədər güclü olur ki... Onu fikrindən döndərmək üçün göstərdiyim cəhdlər də həmişə səmərəli olmur. Xüsusi ilə, aşınmaya uğrayan bir çox adət-ənələrimizlə bağlı mövqeyi sərtdir. İçərişəhərdə böyüyən, belə demək mümkünsə, köhnə kişilərin tərbiyəsini alan, dedi-qodulardan uzaq olmağa çalışan, zərif cinsin nümayəndələrinin belə mənasız söhbətlərinə dözməyən bir xanıma necə deyəsən ki, indi zəmanə o zəmanə deyil, bəzilərinə elə gəlir ki, demokratiya onlara qeybət hüququ da verib. Və ya ictimai nəqliyyatda hətta yaşıdlarına yer verən bu xanıma indiki cavanların xəstələrə, uşaqlı qadınlara, qocalara göz yummasının səbəbini necə izah edəsən? Tərbiyədəki aşınmanın günahını zəmanənin ayağına yazmaqla iş düzələr ki? Bu gün valideynlərinin təkcə adı çəkiləndə sevgidən gözləri yaşaran bu xanımın özündən cəmi iki il böyük bacısına ifrat hörmətinin də hər ailədə şahidi olmaq qeyri-mümkündür. İkiüzlülərdən, yaltaqlardan zəndeyi-zəhləsi gedir. Heç vaxt haqqı nahaqqa verməyən, halal və minnətsiz çörəyi dünyada hər şeydən üstün tutan Sevda xanımın xarakterinə, əyilməzliyinə xüsusən indiki dövrdə - qarının qardaşdan çox irəli düşdüyü, neçə ilin dostunun ən adi şeylərə görə düşmənə çevrilə bildiyi bir zamanda səcdə etmək olar.

Sevda xanımın Gəmiçiliyə bağlılığına köklü dənizçilər də həsəd apara bilərlər. O, sözün həqiqi mənasında Gəmiçiliklə nəfəs alır, hər uğuruna uşaq kimi sevinir. Xüsusilə Gəmiçiliyin Xəzərdənkənar fəaliyyətini bərpa etməsi, hazırda 10-dan çox gəmimizin müstəqil Azərbaycanımızın üçrəngli bayrağı altında xarici sularda uğurlu səfərləri ona qol-qanad verir. Gəmiçiliyə möhkəm tellərlə bağlanmasının bir səbəbi də qohumları arasında dənizçilərin az olmamasıdır. Gəmiçiliyin gəmilərindən birinin dayısının adını daşıdığını da çox az adam bilir. Söhbət “Kapitan Ağasiyev” gəmisindən gedir.

Sevda xanımı tanıdığım ilk günlərdən məni heyrətləndirməyi bacarıb. Tanıdıqca daha çox heyrətlənmişəm. Heyrətləndikcə daha dərindən tanımağa çalışmışam. Söz düşəndə, içi mən qarışıq hamımız heç vaxt yalan danışmadığımızı iddia edirik. Bu məsələdə nə qədər səmimi olduğumuzu hər kəsin öz vicdanının mühakiməsinə buraxıram. Amma Sevda xanım üçün heç müqəddəs yalan ifadəsi də yoxdur. Əminəm ki, hətta doğru danışmaq onun ziyanına olan hallarda da, dilinə heç vaxt yalan gətirməyib. Heç vaxt arxada danışmaması, sözü birbaşa üzə deməsi, riyakarlardan, ədəb-ərkanı, xarakteri xoşuna gəlməyənlərdən münasibətini gizlətməməsi isə işlədiyi bütün illərdə xeyrinə işləməyib.

Canlı ensiklopediyadır Sevda xanım. Yazı yazarkən harda ilişsəm və ya nəyisə dəqiqləşdirmək lazım gələndə yadıma öncə o, düşür. Yeri gəlmişkən, Gəmiçiliklə bağlı bir çox kitabların ərsəyə gəlməsində əziyyəti az olmayıb. Gəmiçiliyin tarixini isə bəlkə ondan yaxşı bilən olmasa da, bu gün də arxiv sənədlərinin toz-torpağını udmaqdan gileylənmir. Gəmiçiliyin tarix muzeyinin yaradılmasında çəkdiyi əziyyətlərdən də bircə mən xəbərdar deyiləm.

Bir çox xanımlardan fərqli olaraq, sözün yaxşı mənasında kitab xəstəsidir. Əlbəttə, söhbət yaxşı kitablardan gedir. Evində kitab əlindən tərpənmək mümkün olmasa da, bu gün də sonuncu qəpiyini belə kitaba xərcləməkdən təəssüflənməz.

İlk baxışdan sərt və qaraqabaq adam təsiri bağışlayan Sevda xanımda yumor hissi o qədər güclüdür ki... Sözü göydə tutur və cavabı da özünü çox gözlətmir.

Bəli, mənim tanıdığım Sevda Nazim qızı Abdullayeva belə xanımdır. Yazdıqlarımın jurnalist təxəyyülünün məhsulu olduğunu düşünənlər isə deməli, onu yaxşı tanımırlar.

*Rasif TAHİROV*

# XƏZƏRİ QORUYAQ...



***Artıq 22 ildir ki, dünyanın bir çox ölkəsi hər il sentyabrın 15-də Beynəlxalq Sahilyanı Təmizlik Gününü qeyd edir. Sahilyanı Təmizlik Günü Yer kürəsində su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn ən irimiqyaslı könüllü hərəkatıdır. Bu məqsədlə on minlərlə insan könüllü olaraq yaşadıqları ərazilərin sahillərini tullantılardan təmizləyir.***

Azərbaycan da həmin beynəlxalq ekoloji aksiyada artıq 7 ildir iştirak edir və ildən-ilə hərəkatın miqyası genişlənir. Tədbirin təşkilatçıları ənənəvi olaraq “Coca-Cola”, “Bakcell”, “PAŞA Bank” şirkətləri və “ASAN School” könüllülük məktəbinin “Yaşıl ASAN”ıdır . Cari ildə təşkilatçılar sırasına “Xəzər TV” kanalı da qoşulub.



Ölkənin bir sıra nüfuzlu şirkətləri, dövlət qurumları və qeyri-hökumət təşkilatları bir araya gələrək bütün dünyada qeyd olunan Beynəlxalq Sahilyanı Təmizlik Günü çərçivəsində sentyabrın 23-də Mərdəkan çimərliyində "Xəzəri qoruyaq" şüarı altında genişmiqyaslı təmizlik aksiyası keçirəcək. Hər il çimərlik mövsümünün sonunda gənclərin, şirkət əməkdaşlarının, onların ailə üzvlərinin iştirakı ilə keçirilən sahilyanı təmizlik aksiyası ölkədə ekoloji durumun yaxşılaşdırılması, əhalinin maarifləndirilməsi və ətraf mühitə məsuliyyətlə yanaşma prinsiplərini təbliğ edir. Bütün aksiya iştirakçıları təşkilatçılar tərəfindən nəqliyyat, idman köynəkləri, sərinləşdirici içkilər və qida, həmçinin təmizlik ləvazimatları ilə təmin olunacaqlar. Ötən illərdən fərqli olaraq, bu ilki aksiyada geniş ekoloji maarifləndirmə tədbirləri də nəzərdə tutulub. Belə ki, qəzet və xəbər saytlarında, təşkilatçıların Facebook səhifələrində, “ASAN Radio” və “Xəzər” televiziyası vasitəsilə əhalini ətraf mühitə məsuliyyət və qayğı ilə yanaşmağa çağıran müxtəlif informasiya materialları yayımlanacaq.

Azərbaycanda son yeddi il ərzində keçirilən analoji birgünlük aksiya çərçivəsində Xəzər dənizinin çimərliklərinin 33 hektara yaxın ərazisi 21 ton məişət tullantısından təmizlənib. Təmizlənən ərazilərdən toplanan tullantılar qeydə alınaraq məlumatlar “Ocean Concervancy” beynəlxalq təşkilatına göndərilir. Həmin məlumatlar isə öz növbəsində dünya su hövzələrinin təmizlənməsi haqqında ölkələr üzrə beynəlxalq hesabatlarda əks olunur.

Tədbirin təşkilatçıları hər kəsi aksiyaya qoşulmağa və Xəzəryanı sahil ərazisinin təmizlənməsinə öz töhfələrini verməyə dəvət edir. Aksiyada iştirak etmək istəyənlər (012) 436-90-67/436-85-09 telefon nömrələrinə zəng edib, info@redcom.az ünvanına iştirakla bağlı məktub göndərə bilərlər.




## TƏDQİQATÇILAR ƏN BÖYÜK DƏRİNLİKDƏ YAŞAYAN BALIĞIN VİDEOÇƏKİLİŞLƏRİNİ APARIBLAR

***Bir qrup yapon tədqiqatçı NHK telekanalının dəstəyi ilə Sakit okeanda 8 min 178 metr dərinlikdə yaşayan balığın videoçəkilişlərini aparmağa nail olub. Bu, tarix boyu ən böyük dərinlikdə aparılmış videoçəkilişdir.***

Alimlərin qənaətinə görə, balıqların yaşaya biləcəyi ən böyük dərinlik 8 min 200 metrə bərabərdir.

Cari ilin mayında həmin hipotezi sübut etmək istəyən Yaponiya Dəniz Geologiyası Elmləri və Texnologiyaları Agentliyinin (JAMSTEC) bir qrup tədqiqatçısı pilotsuz aparatı Mariana çökəkliyində 8 min 178 metr dərinliyə endirib. Həmin aparat NHK telekanalı tərəfindən təqdim olunmuş çox yüksək 4K həllinə malik videokamera ilə təchiz edilib.



## QƏRİBƏ GƏMİ

***"Ayrfield" Avstraliyada ən qəribə gəmidir. Belə ki, Sidneyin qərbində Houmbuş körfəzində yerləşən gəmi meşəyə dönüb.***

1911-ci ildə Böyük Britaniyada düzəldilmiş 106 yaşlı gəmi sanki gəmilər qəbiristanlığında üzən balaca yaşıl adadır.

Gəmi İkinci Dünya müharibəsi dövründə təchizatda istismar edilirdi. 1972-ci ildə "Ayrfield" Houmbuş körfəzinə gətirilir və bu gün də orda lövbərdə dayanıb. Maraqlıdır ki, körfəzdə indiyədək onlarla gəmi tufan, su axıntıları nəticəsində batıb. "Ayrfield" isə göyərtəsindəki meşə ilə birlikdə hələ də suyun üzərindədir.

Bütün dünyanın ən məşhur fotoqrafları məhz bu gəmini qürubun fonunda çəkmək üçün körfəzə toplaşırlar. Atılmış gəmi Avstraliyanın vacib turistik obyektinə çevrilib.

***Turab Məmmədov***





## ALMANLAR NİKBİNDİRLƏR

***Avropalıların çoxu ilə müqayisədə almanlar öz ölkələrinin gələcəyini xeyli dərəcədə daha nikbin qiymətləndirirlər.***

Bertelsman Fondunun sorğusunun nəticələrinə görə, AFR sakinlərinin 59 faizi güman edir ki, Almaniya düzgün istiqamətdə inkişaf edir. Müqayisə üçün deyək ki, İtaliyada bu göstərici ən aşağı səviyyədə olub, vur-tut 13 faiz təşkil edir; Böyük Britaniyada 31 faiz, Fransada 36 faizdir.

Almanlar Avropa İttifaqının inkişafına xeyli dərəcədə mənfi münasibət bəsləyirlər. Respondentlərin təqribən dörddə üç hissəsi (72 faizi) Avropa İttifaqının inkişaf istiqamətini düzgün hesab etmir. İtaliyada isə əhalinin 83 faizi daha kəskin tənqidi mövqe tutub. Bütövlükdə isə eyni fikri Avropa İttifaqı sakinlərinin 66 faizi bölüşür.

Almanların siyasi baxışlarına gəldikdə isə onlar ifrata varmaqdan çəkinirlər: almanların 80 faizi mərkəzçi siyasətə üstünlük verir. Fransada rəyi soruşulanların 51 faizi, Avropa İttifaqı üzrə 66 faizi belə qənaətdədir.

***Vüqar Seyidov***

## SU TAKSİSİ XİDMƏTİ GÖSTƏRİLƏCƏYİ PLANLAŞDIRILIR

***Parisdə ekoloji baxımdan təmiz su taksisi xidməti göstəriləcəyi planlaşdırılır. Bu xidməti Parisdə fransalı yaxtsmen Alen Tebo işə salmaq istəyir.***



Reuters xəbər verir ki, Alen Tebo sualtı qanadları olan kater düzəldib. Onların hesabına suyun üzərində dalğa yaranmır və çay məcrasından çıxmır. Elektrik mühərriklə işləyən "SeaBubbles" adlı bu gəmi ekoloji baxımdan da ətraf mühit üçün təhlükəsizdir. "Yaşıl" texnologiyalar tərəfdaşı olan Parisin meri Ann İdalqo artıq bu gəmidə gəzib.

"SeaBubbles" gəmi-taksiləri adi taksilər kimi xüsusi mobil proqram vasitəsilə sifariş etmək olar. Hazırda layihə bir çox investorların diqqətini cəlb edib. Alen Tebo sentyabrın sonunadək 100 milyon avro toplamağı planlaşdırır.

Lakin bu xidmətin işə düşməsindən öncə şəhər icrası tərəfindən Sena çayı üzərində yüksək sürətlə hərəkət üçün icazə alınmalıdır. Hazırda bu mümkün deyil, sürət məhdudiyyəti var. Şirkət Ann İdalqoya artıq rəsmi məktub yollayıb.

Məlumat üçün qeyd edək ki, bu layihəni hələ iqtisadiyyat naziri olarkən hazırda isə Fransa Prezidenti Emmanuel Makron dəstəkləyirdi.

Alen Tebo düşünür ki, su taksisi xidmətini digər meqapolislərdə də işə salmaq olar. Onun sözlərinə görə, "SeaBubbles" layihəsi ilə artıq beş iri şəhərdə maraqlanıblar.

## OKEAN AXINLARINDAN ELEKTRİK ENERJİSİ ALINIB




***Yaponiyanın "IHI Corporation" şirkəti və Yeni Energetikanın və Sənaye Texnologiyalarının İnkişafı Təşkilatı (NEDO) birlikdə dünyada ilk dəfə okean axınlarından istifadə etməklə elektrik enerjisinin istehsalına imkan yaradan avadanlığı sınaqdan keçiriblər.***

Kuçinoşima adasının yaxınlığında keçirilən sınaq zamanı Kuroşio axını rayonunda 20-50 metr dərinlikdə metal silindrlərdən ibarət avadanlıq yerləşdirilib.

Təqribən 20 metr uzunluğunda silindrlərdən ikisinin kənarında hər biri 11 metr diametrə malik kürəklərlə təchiz edilmiş iki generator quraşdırılıb.

Sınaq zamanı mütəxəssislər 30 kilovat gücündə elektrik enerjisi əldə ediblər. Yeni qurğudan 2020-ci ildən başlayaraq istifadə olunacağı gözlənilir.

## DƏNİZİN DİBİNDƏ KREYSERİN QALIQLARI AŞKARLANIB

***"Microsoft" şirkətinin təsisçisi Pol Allenin rəhbərlik etdiyi tədqiqatçılar qrupu Filippin yaxınlığında dənizin dibində ABŞ-a məxsus "İndianapolis" kreyserinin qalıqlarını aşkar edib.***

Həmin kreyser İkinci Dünya müharibəsinin son günlərində Şimali Mariana adalarına daxil olan Tinian adasına Hiroşimaya atılan atom bombasının əsas hissələrini çatdırıb.

Tapşırığı yerinə yetirərək geri dönən kreyser 1945-ci il iyulun 30-da Yaponiyaya məxsus sualtı qayığın endirdiyi torpedo zərbəsi ilə batırılıb.




## DUZLU GÖLLƏRDƏKİ MİKROBLAR VİRUSLARIN TƏKAMÜL SİRLƏRİNİ AÇIQLAYA BİLƏR



***Avstraliyalı alimlər Antarktida qitəsinin duzlu göllərində yaşayan mikrobların virusların təkamülünün öyrənilməsinə yardım edəcəyini bildiriblər.***

"Nature Microbiology" dərgisi xəbər verir ki, 18 aylıq araşdırma nəticəsində bəzi mikrobların öz daxilində kiçik halqavarı DNA molekulları plazmidləri saxladığı məlum olub. Elm adamları əsas hüceyrədə müstəqil olaraq törəyəbilən plazmidlərin virusların böyüməsinə və həyatda qalmasına kömək edəcəyini və tədqiqatın virusların təkamül tarixini işıqlandıra biləcəyini açıqlayıblar.

Tədqiqatçılar plazmidlərin viruslar kimi tez-tez şəkil dəyişdirdiyini, hüceyrə divarına daxil olan proteinlər istehsal etdiyini, bəzi virusların plazmidlərdən inkişaf etdiyini bildiriblər.

## İKİ GÖYDƏLƏN ARASINDA GƏZİŞMƏK MÜMKÜN OLACAQ

***Tanınmış "Emaar Properties" tikinti şirkəti Dubayda turizm əhəmiyyətli yeni obyektin - "Downtown Dubai"də "Address Sky View" layihəsinin iki qülləsi arasında yerdən 200 metr yüksəklikdə "Sky Walk" deyilən gəzinti yerinin istifadəyə verildiyini elan edib.***




Birləşmiş Ərəb Əmirliklərində çıxan "Arabian business" nəşri yazır ki, kəskin təəssüratları sevənlər sözün həqiqi mənasında binanın bayırında 45 metrlik məsafəni təhlükəsizlik kəmərlərində cəlbedici şəhər mənzərələrini seyr edə-edə qət edə biləcəklər.

Yaşayış və mehmanxana layihəsi olan "Address Sky View" 70 metr uzunluğunda mənzərəli hovuzu, qülləri birləşdirən körpüsü və digər unikal obyektləri ilə də məşhurdur.

"Sky Walk" "Emaar Properties" şirkətinin "At the Top", "Burj Khalifa SKY" kimi maraqlı attraksionlarından birinə çevriləcək.

"Emaar Properties" şirkətinin sədri Məhəmməd Alabbar nəşrə müsahibəsində deyib: "Address Sky View" "Downtown Dubai"də ən nüfuzlu layihələrdən biridir. Layihə özündə nəinki dünya səviyyəli otel və apartamentləri, həm də məşhur "Sky Bridge" və yeni "Sky Walk" obyektlərini birləşdirir". Onun sözlərinə görə, "Sky Walk" şəhərin turizm məkanları arasında layiqli yer tutacaq və gələnlərə unudulmaz təəssüratlar bəxş edəcək.

## YARIZARAFAT, YARIGERÇƏK

**Nəyisə bilməyənlər nəyisə bilməyənlərdir. Ağıllı adamların qədrini bilməyənlər isə heç nə bilməyənlərdir.**

**Faciə o deyil ki, biz hər şeyi görə bilmirik. Faciə odur ki, biz gözlərimizi dörd açmaq lazım olanda gözlərimizi yumuruq.**

**Bəzi sualların cavabı biliklə, bəzi sualların cavabı isə ağılla verilməlidir.**

**Həqiqət deyilən bir şey var. Çoxlarının nəyə görəsə zəhləsi getdiyi həqiqət.**

**Ən qısa yol məsafə baxımından ən sərfəli yol olsa da, həmişə ən doğru yol olmur. Ən doğru yol ən təhlükəsiz yoldur.**

**Fikirləşməyi bacarırsansa, çox şey bacararsan.**

**Axirətdən başqa, köçdüyümüz istənilən yer sonuncu deyil.**

**Yerində deyilən söz yetişmiş meyvə kimi həmişə ləzzətli olur.**

**Yaxşı fikirlər tətbiqi mümkün olan yerdə yaxşıdır.**

**Gülün. Dünya gülə bilənlərindir.**

**Nə qədər axmaq kişi varsa, o qədər də bədbəxt qadın var.**

**Güclü olmaq istəyənlər dürüst olmaq istəyənlərdən qat-qat çoxdur.**

**Qanadlarımız olmaya-olmaya niyə çox şeyi göydə axtarmaq həvəsinə düşürük?**

**Gah gecikdim. Gah gələ bilmədim. Gah da məni gözləmədilər. Həyat belə keçməlidir?**

**Qısqanclıq və sevgi mehriban düşmənlərdir.**

**Elə gerçəkliklər yaşadım ki, xəyallara sığmazdı.**

**Həmişə haqsızlığa uğramışam. Amma bunlar məni heç vaxt haqsızlıq etməyə vadar edə bilməyib.**

**Ağıllı adamları çox sevirəm. Amma düşünürəm ki, başqalarına qarşı da səbirli olmaq lazımdır. Ağıllı olmayan hər kəsi küçəyə atsaq, onda küçələrdə səfehlərin əlindən tərpənmək olmaz.**

**Hədsiz dərəcədə təkəbbürlü adamlar əslində ən qorxaq və cılız adamlardır.**

**Elə düşünməyin ki, qaçmağı qorxaqlığın əlaməti saydığım üçün heç nəyin dalınca qaçmadım.**

**Dayazların düşüncələrinə görə, hər şeyin dərinliyinə çox varıram.**

**Səndən çox deyil. Bir dənədir. Az olanın qiyməti də ucuz olmur. Dəyərini bil.**

**İgidliyin doqquzu yox, lap ikisi qaçmaqdırsa, mənə o igidlik lazım deyil.**

**Yaxşı ki, Allah gözəgörünməzdir. Görsəydim, bu qədər sevməzdim bəlkə...**

**Tanrı günahlarımızı bağışlaya bilər. Bəlkə bağışladı da... Amma bəzilərinə elə gəlir ki, bağışlamalıdır.**

**Harda yaltaqların meydanı genişdirsə, oraya heç olmasa göydən daş yağa.**

**Sən mənimlə dost da, qardaş da ola bilərsən. Amma mən yenə yalnız öz yolumla gedəcəyəm.**

**Dürüstlərin elə bu dünyada da cənnətdə yaşamaq haqqı var.**

**Gör nə qədər adam kiminsə haqqını yeməyənləri səfeh sayır e...**

**Yalnız qohumların çalışdığı yerdə "Şəxsi iş"ə nə ehtiyac? Onsuz da hamı bir-birini yaxşı tanıyır.**

**İt-pişik kimi yola gedilən evdə də it-pişik saxlayarlar?**

**Sadəcə ağlaya bildiyiniz üçün ağlamayın.**

**Pis və ya yaxşı, hər kəs hekayə yaza bilir – öz həyat hekayəsini.**

**Vaxtını öldürən adam da ömrün qısalığından niyə gileylənir?**

**Yatanlar hardan bilsinlər ki, həyat çox şirindir?**

**Dost kimi rəftar edə bilmirsənsə, ətrafın həmişə düşmənlərlə dolu olacaq.**

**Bəziləri paltarından çox maskasını dəyişir.**

**Gör nə qədər adam oyun oynayır. Oynamağı xoşlamasınız da, başqalarının oynadığı oyunlardan baş çıxarmağınız gərək. Yoxsa həmişə uduzacaqsınız.**

**Dilin heç bir günahı yoxdur. Çünki dil sadəcə poçtalyondur. Ağıl nə göndərirsə, dil də onu çatdırır.**

**Mən axmaqlardan çox şey öyrəndim. Xüsusilə nəyi etmək lazım olmadığını.**

**Oğurluq yaxşı şey olmasa da, xalqın səadəti üçün lap Allahdan da nə isə oğurlamağa dəyər.**

**Ağıllı adamlara heç olmasa söz demək imkanı yaradılmayan yerlərdə yalnız axmaqların axmaq qanunları işləyər.**

**Özünə yaxşı bax. Heç kəs sənə sənin özündən yaxşı baxa bilməz.**

**Başınıza gəlməsini istəmirsinizsə, pis şeylər haqqında çox fikirləşməyin.**

**Hər bir ata övladının ilk növbədə adam, sonra hər hansı peşə sahibi olmasını istəyir.**

**Ağılla bağlı yalnız ağıl dişinin çıxmasına sevinmədim.**

**Unutmayın, "A"-dan sonra həmişə "B" gəlmir.**

**Qanıqara vaxtlarda gələcəyin sevinc payından borc götürmək olar?**

***Rasif TAHİROV***



# UNİVERSAL DÖYÜŞÇÜLƏRİMİZ AVROPA ÇEMPİONATINDA UĞURLA ÇIXIŞ EDİBLƏR

***Ukraynanın Koblevo şəhərində universal döyüş üzrə Avropa çempionatı keçirilib. Yarışda ölkəmizi Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov və yığma komandanın məşqçisi Elşən İsmayılovun rəhbərliyi altında 17 idmançı təmsil edib.***

28 ölkənin iştirakı ilə keçirilən yarışda komandamızın üzvləri böyüklər arasında 4 qızıl, 3 gümüş, 3 bürünc, gənclər arasında 3 qızıl, 1 gümüş, 1 bürünc, yeniyetmələr arasında 1 qızıl, 1 gümüş, 2 bürünc medal qazanıblar.

Böyüklər arasında qızıl medalları komandamızın aktivinə Nicat Əliyev (75 kq, layt və klassik versiyalarda), Səlim Salmanov (90 kq, layt versiya) və Tahir Məsimov (95 kq, layt versiya) yazdırıblar.

# GƏLƏN İL AZƏRBAYCANIN EV SAHİBLİYİ EDƏCƏYİ CÜDO ÜZRƏ DÜNYA ÇEMPİONATININ BAYRAĞI ÖLKƏMİZƏ TƏQDİM OLUNUB





***Cüdo üzrə 2018-ci ildə Bakıda keçiriləcək dünya çempionatının bayrağı Azərbaycan Cüdo Federasiyasının nümayəndə heyətinə təqdim olunub.***

Federasiyadan bildiriblər ki, mundialın bayrağının Azərbaycana təqdim edilməsi münasibətilə Macarıstanın paytaxtı Budapeştdə təntənəli mərasim keçirilib.

Mərasimdə Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer bu il dünya birinciliyini yüksək səviyyədə təşkil etdiyinə görə Macarıstan Cüdo Federasiyasına təşəkkürünü bildirib və mundialın bayrağını rəmzi olaraq bu ölkədən təhvil alıb. M.Vizer bayrağı növbəti dünya çempionatının təşkilatçısına - Azərbaycan Cüdo Federasiyasına təqdim edib. Bayrağı federasiyanın vitse-prezidenti Sadıq Sadıqov təhvil alıb.

Tədbirdə daha sonra 2018-ci ildə Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatının təqdimat videosu nümayiş etdirilib.



# RAMİL QULİYEV AYIN ATLETİ SEÇİLİB

***Avropa Atletizm Birliyi hər ay sosial şəbəkələrdə səsvermə yolu ilə seçdiyi "Avropada ayın atleti" mükafatına layiq idmançının adını açıqlayıb.***

Türkiyəni təmsil edən azərbaycanlı atlet Ramil Quliyev avqust ayının idmançısı seçilib.

Həmyerlimiz ötən ay Londonda keçirilmiş Dünya Atletizm Çempionatında və Birminqemdəki Almaz Liqasında kişilər arasında 200 metr məsafəyə qaçış yarışlarında qızıl medal qazanıb. Bundan əlavə, R.Quliyev Berlindəki İSTAF Oyunlarında isə 100 metr məsafəni ikinci başa vuraraq gümüş medala sahib olub.

# ŞAHMATÇILARIN UNİVERSAL REYTİNQİ DƏRC EDİLİB



***Şahmatçıların 2017-ci il sentyabrın birinə olan universal reytinqi (URS) dərc edilib. URS şahmatçıların klassik, rapid və blits yarışlarında iştirakını nəzərə alır.***

Azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov 2783 reytinqlə cədvəldə 7-ci yeri tutaraq ilk onluğa daxil olub. İlk üç yerdə müvafiq olaraq Norveç təmsilçisi Maqnus Karlsen (2858), ABŞ şahmatçısı Hikaru Nakamura (2797) və Fransa təmsilçisi Maksim Vaşye-Laqrav (2795) dayanıb.

Azərbaycan şahmatçılarından yüzlüyə daxil olanlar sırasında Teymur Rəcəbov (2737) 20-ci yeri, Rauf Məmmədov (2706) 41-ci, Qədir Hüseynov (2686) 58-ci, Arkadi Naydiç 64-cü, Eltac Səfərli (2669) 80-ci yeri tutub.

# BAKI BATUT GİMNASTİKASI ÜZRƏ AVROPA ÇEMPİONATINI QƏBUL ETMƏYƏ TAM HAZIRDIR

***Bakıdakı Milli Gimnastika Arenası gələn il batut gimnastikası, tamblinq və ikili mini-batut üzrə Avropa çempionatını qəbul etməyə tam hazırdır.***



Azərbaycan Gimnastika Federasiyasının saytı xəbər verir ki, bunu Avropa Gimnastika İttifaqının (UEG) batut gimnastikası üzrə texniki komitəsinin prezidenti Vladimir Zeman deyib.

V.Zeman bildirib ki, Milli Gimnastika Arenası bu cür böyük yarışların keçirilməsi üçün Avropada olan ən yaxşı arenalardan biridir. Biz Bakıya, ilk növbədə, yarışların hazırlığı ilə tanış olmağa gəlmişik. Eləcə də iki gün ərzində texniki komitənin iclaslarını keçirəcəyik. Deyə bilərəm ki, Milli Gimnastika Arenası Avropanın ən yaxşı idman qurğularından biridir. Bu arena gimnastikanın bütün növləri üzrə ixtisaslaşmış idman qurğusudur.

UEG rəsmisi qeyd edib ki, Bakı, həmçinin irimiqyaslı yarışların keçirilməsində böyük təcrübəyə malikdir. İki il əvvəl Bakıda birinci Avropa Oyunları yüksək səviyyədə təşkil olundu. Bundan başqa, Bakı iki dəfə batut gimnastikası və digər gimnastika növləri üzrə dünya kuboku yarışlarını qəbul edib.

"Milli Gimnastika Arenası batut üzrə dünya çempionatını qəbul etməyə hazırdır. Bu, növbəti addım olmalıdır. Azərbaycan dəfələrlə gimnastika üzrə dünya kuboku yarışlarını qəbul edib. Gələn il isə Avropa birinciliyi keçiriləcək. Dünya çempionatı niyə də Bakıda keçirilməsin? Düşünürəm ki, Bakı, Milli Gimnastika Arenası buna tam hazırdır", - deyə Vladimir Zeman əlavə edib.

# POLŞALI İDMANÇI BALTİK DƏNİZİNİ ÜZƏRƏK KEÇİB

***Polyak üzgüçü Sebastyan Karas bir ilkə imza atıb: o, tarixdə ilk dəfə Baltik dənizini üzərək keçə bilib.***



İdmançı Polşanın Kolobjeq şəhəri ilə Danimarkanın Bornholm adası arasındakı məsafəni 28,5 saata qət edib.

İdmançını kiçik bir gəmi müşayiət edib. Bu müddətdə bəzən dalğaların hündürlüyü 2 metrə çatır, suyun temperaturu isə 20 dərəcəni aşmırdı.

Sebastyan Karas Baltik dənizini üzərək keçmək üçün ilk dəfə keçən il cəhd göstərib, lakin o vaxt startdan 8 saat sonra üzgüçü səhhətinin vəziyyətinə görə bu cəhdini yarımçıq dayandırmalı olub.

26 yaşlı üzgüçü Elblonqda anadan olub. İki il bundan əvvəl o, La-Manş kanalını üzərək keçib və o vaxt da yüksək nəticə göstərib.

# DİLDƏ ƏRP HANSI XƏSTƏLİYİN ƏLAMƏTİDİR?



***Çox vaxt dildə əmələ gələn ərp normal hal kimi qəbul edilir. Lakin dil əslində ləkəsiz, çöküntüsüz, çəhrayı rəngdə olmalıdır. Yalnız yuxudan sonra əmələ gələn və ya rahatlıqla təmizlənə bilən yüngül ağ rəngli çöküntü normal qəbul oluna bilər. Digər hallarda dildə əmələ gələn hər bir ləkə orqanizmdə baş verən hansısa problemin xəbərçisidir və bunun yaranma səbəblərini müəyyən etmək mütləqdir.***

ayzdorov.ru saytı xəbər verir ki, dildə əmələ gələn qatılaşmalar rənginə, qatın qalınlığına, formasına və lokallaşmasına görə fərqlənir. Sağlam çöküntü ilin fəsillərindən asılı olaraq quruluşuna görə dəyişir. Belə ki, adətən payızın sonlarına doğru görünməz olan çöküntü yay fəslinə doğru daha çox qatılaşır. Çöküntülər ağ, sarımtıl, tünd boz və hətta qara rəngə kimi dəyişə bilər. Belə ki, yaranma səbəbləri qatılıqdan və rəngdən asılı olaraq dəyişir. Yüksək qatılıq xəstəliyin ağırlığından, yüngül ərp isə orqanizmdə yayılmağa başlayan hansısa infeksiyadan xəbər verir. Kəskin respirator xəstəliklər zamanı da dildə yüngül ərp yarana bilər. Dilin səthinin görünməyəcəyi qədər qalın qat əmələ gəlməsi isə orqanizmdə baş verən güclü virus infeksiyaları və ya hansısa xroniki xəstəliyin başlanmasının göstəricisidir.

Qalın və olduqca qatı ərp bağırsaqda meydana çıxan problemlərin əlamətidir. Yoğun bağırsaqda toksin və şlakların toplanması zamanı isə dilin kök hissəsində ləkə şəkilli çöküntü müşahidə edilir. Qızdırma ilə müşayiət olunan qalın ərp qatı orqanizmdə infeksion xəstəliyin yayılması barədə xəbər verir. Mədə-bağırsaq sistemi pozuntuları və ya qaraciyər, öd kisəsi problemləri zamanı dildə nazik, selikli ərp qatı yarana bilər. Ağciyər problemləri zamanı dilin ön və yan tərəflərində ağımtıl ərp çöküntüləri əmələ gəlir. Böyrək pozuntuları səbəbindən isə dilin kök hissəsinə yaxın ağ ləkələr yarana bilər. Əsasən uşaqlarda müşahidə edilən kandidozun göstəricilərindən biri də bütün dili əhatə edən və ya ləkələr şəklində əmələ gələn kəsmikə bənzər ağ qatdır. Quru, ağımtıl ərp isə orqanizmin susuzlaşmasından xəbər verir. Belə qatılaşmalar dalağın funksional pozuntuları zamanı da baş verə bilər. Dilin sol tərəfində əmələ gələn sürüşkən ağ ərp qatı isə qaraciyər və ya öd kisəsində meydana çıxan infeksiyanın göstəricisidir.

# AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI VAKANT OLAN VƏZİFƏLƏRİN TUTULMASI ÜÇÜN MÜSABİQƏ ELAN EDİR



**Azərbaycan Dövlət Dəniz Akademiyası aşağıda göstərilən dekanlıqlar və kafedralar üzrə vakant olan vəzifələrin tutulması üçün müsabiqə elan edir:**

**"Dəniz naviqasiyası" fakültəsi:**

dekan – 1 yer, texnika elmlər doktoru, professor və ya texnika elmlər doktoru, dosent və ya texnika üzrə fəlsəfə doktoru

**"Gəmi elektrotexnikası" fakültəsi:**

dekan – 1 yer, texnika elmlər doktoru, professor və ya texnika elmlər doktoru, dosent və ya texnika üzrə fəlsəfə doktoru

**"Gəmi elektroavtomatika" kafedrası:**

kafedra müdiri – 1 yer, texnika elmlər doktoru, professor və ya texnika elmlər doktoru, dosent və ya texnika üzrə fəlsəfə doktoru, dosent

**"Mexanika və riyaziyyat" kafedrası:**

kafedra müdiri – 1 yer, kafedranın profilinə uyğun elmlər üzrə elmlər doktoru, professor və ya elmlər üzrə elmlər doktoru, dosent və ya elmlər üzrə fəlsəfə doktoru, dosent

Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir. Sənədlərin təqdim olunması elan dərc edildiyi tarixdən 1 ay müddətindədir.

**Ünvan: Bakı şəhəri, akademik Zərifə Əliyeva küçəsi 18.**

**Əlaqə telefonu: 493-75-21, 493-36-44 daxili 229**

# İMMUNİTETİ MÖHKƏMLƏDƏN ƏN YAXŞI MƏHSULLAR

***Amerika alimləri bu qənaətə gəliblər ki, insanın immuniteti bağırsaq mikroflorasından asılıdır. "vistanews.ru" saytı xəbər verir ki, onlar orqanizmin qoruyucu qüvvələrini möhkəmlədən ən yaxşı məhsulların adlarını açıqlayıblar.***



ABŞ mütəxəssislərinin fikrincə, insan lifli qida nə qədər çox yesə, onun bağırsaq hüceyrələri bir o qədər sürətlə işləyir. Lifli qida həzm olunanda əmələ gələn maddə orqanizmin qoruyucu funksiyasını yaxşılaşdırmaqda hüceyrələrə kömək edir. Alimlər bir sıra tədqiqatlar apararaq aydınlaşdırıblar ki, orqanizmin xəstəlik törədən patogenlərdən müdafiəsi çox vaxt rezident bakteriyaların fəallığından asılıdır. İnsan sellülozla zəngin yemək yeyəndə kolonsitlər elə işləməyə başlayır ki, rezidentlərin məhv olmasının qarşısı tamamilə alınır.

Alimlər bildirirlər ki, düzgün qidalanma yeyilən məhsulların keyfiyyətindən birbaşa asılıdır. Düzgün qidanın tərkibində yağlı, unlu və nişastalı məhsullar mümkün qədər az olmalı, daha çox zülal, vitaminlər, sellüloz və mikroelementlər olmalıdır. Diyetoloqlar isə bildirirlər ki, immuniteti möhkəmlətmək üçün müxtəlif sıyıqlara, tərəvəzə, taxıl məhsullarına, yerkökünə, habelə sitrus bitkilərinə üstünlük verilməlidir.

# UZUN MÜDDƏT AYAQÜSTƏ QALMAQ ÜRƏK XƏSTƏLİKLƏRİ RİSKİNİ ARTIRIR

***Kanadalı mütəxəssislər 7320 nəfərin iştirakı ilə tədqiqat apararaq, ayaqüstə və oturaq vəziyyətdə işləməyin insan orqanizminə təsirini araşdırıblar. İştirakçılar işdə həftədə, ən azı, 15 saat oturaq vəziyyətdə və ya ayaqüstə olublar, yaxud da həm oturaq, həm də ayaqüstə çalışıblar. Alimlərin aradıqları müşahidələr 12 il davam edib. Tədqiqatın başlanmasına qədər iştirakçılardan heç biri ürək xəstəliyindən əziyyət çəkməyib.***

"The Daily Mail" nəşri xəbər verir ki, tədqiqatçılar ayaqüstə işləyənlərin ürək xəstəliklərinə oturaq işdəkilərdən iki dəfə çox ürcah olduqlarını aşkar ediblər. Alimlər, həmçinin aydınlaşdırıblar ki, işdə həm oturaq, həm də ayaqüstə olan kişilərdə ürək xəstəlikləri sadəcə oturaq vəziyyətdə işləyən kişilərdən 39 faiz çoxdur. Qadınlarda isə həmin göstərici daha yüksək – 80 faiz həddinə çatır.

Mütəxəssislər nəticələrə təsir göstərən amilləri də nəzərə alıblar. Onların qənaətinə görə, ayaqüstə olanda qan ayaqlara doğru axır və ürəyin yükü artır. Buna görə də uzun müddət ayaqüstə qalmaq ürək xəstəlikləri riskini artırır. Həmin vəziyyət, həmçinin beldə problemlərin yaranmasına və hətta uşaqsalmaya da səbəb ola bilər. Ekspertlər tövsiyə edirlər ki, iş gününü ayaqüstə keçirənlər arada mütləq əyləşməyə də imkan tapsınlar.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2546